

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 9 (24.444)

27 fevral 2025-ci il, cümə axşamı

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı soyqırımı abidəsini ziyarət ediblər



XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 33-cü ildönümü ilə əlaqədar fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva soyqırımı qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər.

Dövlətimizin başçısı Xocalı soyqırımı abidəsinin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib.

Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstəsi qoyub, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirib.



# Xocalı: unudulmaz tarix, yenidən doğan şəhər



### Xocalı dünən

Xocalı. Bu adı eşidəndə gözümüzün önündə qocaların ərşə dayanan fəryadı canlandı, günahsız körpələrin çığırtısı qulaqlarımızda cingildədi, ürəyimiz sızladı. Hər foto, hər kadr 25-dən 26-na keçən gecə yaşanan dəhşətlərin miqyasını göstərirdi. 1991-ci ilin oktyabrından Xocalı mühasirəyə alınmışdı. Şəhərə aparan bütün avtomobil yolları bağlanmış, sonuncu vertolyot isə 1992-ci il yanvarın 28-də enmişdi. Xocalıya elektrik enerjisinin verilməsinin dayandırılmasına, yolların bağlanmasına, mövcud təhlükəyə rəğmən şəhər sakinləri öz yurdunu tərk etmir, müqavimət göstərir və yaşayırdılar. Ta erməni faşistləri öz havadarları ilə birgə aylarla mühasirədə saxladıqları bu dinc şəhəri yerləyeksan edənədək.

5 istiqamətdən hücuma məruz qalan Xocalı yerləyeksan edilmişdir. Xocalı soyqırımı yalnız ölkəmizə qarşı deyil, bütün bəşəriyyətə qarşı törədilmiş ən ağır insanlıq faciəsi idi ki, bu tarixi faciəni hər il dərin hüznlə qeyd etmişik.

### Xocalının səsi

Ötən illər Xocalının qaysaq bağlamış yarasını örtmədi. Əksinə, düşmənin iç üzünü göstərən Xocalının səsi bütün dünyaya duyuruldu. Yetişən gənclik bu səsin sədaları altında böyüdü. Xocalıda narahat ruhlar dolanırdı, torpaq öz doğmalarını səsləyirdi, öz sakinlərinin yolunu gözləyirdi. 44 günlük Vətən müharibəsində qazanılan zəfər haqqın, ədalətin təntənəsi idi. Nəhayət, 30 illik həsrətdən sonra xalq öz Zəfərini qeyd etdi. 2020-ci il Azərbaycan tarixinə “Zəfər ili” kimi yazıldı.

Səhifə ⇨ 2

## Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ermənistan Respublikasının Azərbaycan Respublikasına hərbi təcavüzü ilə başlanan I Qarabağ müharibəsi (1991-1994) zamanı Ermənistan tərəfindən Şərqi Zəngəzur və Qarabağ işğal edilərək dağıdılmış, Azərbaycan xalqına qarşı ən ağır beynəlxalq cinayətlər törədilmişdir.

1992-ci il fevralın 26-da Xocalı şəhəri işğal edilərkən dinc əhaliyə qarşı etnik zəmində törədilən soyqırımı cinayəti münaqişənin ən qanlı səhifəsidir.

Belə ki, erməni silahlı birləşmələri tərəfindən aylarla blokada şəraitində saxlanılaraq ərzaq, elektrik enerjisi və bütün kənar yardımlardan məhrum edilən 2500-ə yaxın Xocalı sakini düşmənin çoxsaylı təhdidlərinə baxmayaraq, şəhəri tərk etməkdən imtina etmişdi. Fevralın 25-dən 26-na keçən gecə davamlı artilleriya atəşindən sonra Ermənistan silahlı qüvvələri və yarım-hərbi birləşmələri keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə şəhərə hücum edərək mülki əhaliyə misli görünməmiş vəhşiliklə divan tutmuşlar. Həmin qətliam nəticəsində 613 azərbaycanlı, o cümlədən 106 qadın, 63 uşaq, 70 ahıl xüsusi amansızlıqla qətlə yetirilmiş, 1275 nəfər əsir götürülmüş, onlardan 150-nin taleyi isə indiyədək naməlum qalmışdır. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq valideynlərindən hər ikisini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. 487 şəxs, o cümlədən 76 uşaq məruz qaldıqları ağır fiziki və psixoloji işgəncələrdən ömürlük əlilə çevrilmişdir.

Ermənistanın bütün cəhdlərinə, xüsusilə də o dövrdə yaratdığı informasiya blokadasına baxmayaraq, cinayətin miqyası və ağırlığı dünyanın aparıcı media qurumlarının və beynəlxalq təşkilatlarının hesabatlarında işıqlandırılmışdı. Yerli və xarici jurnalistlərin faciədən sonra Xocalı şəhəri və ətraf ərazilərdən topladıqları foto və videomateriallar, o cümlədən şahid ifadələri hadisənin bütün dəhşətlərini açıq-aşkar göstərir. Avropa İnsan Hüquqları Məhkəməsinin 2010-cu ildə məsələ ilə bağlı çıxardığı yekun qərarda Xocalıda törədilən əməllər müharibə cinayətləri və insanlıq əleyhinə cinayət kimi qiymətləndirilmişdir.

Ermənistanın Xocalını işğal etmək planı hərbi məqsədlərlə məhdudlaşmır, eyni zamanda həmin ərazilərdəki Azərbaycan xalqına məxsus zəngin tarixi-mədəni izləri silmək, mədəni irsi məhv etmək və saxtalaşdırmaq niyyəti güdürdü.

Xocalı soyqırımının əsl hüquqi qiymətini alması və dünyanın belə bir cinayətdən xəbərdar olması ilə bağlı milli səviyyədə addımlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra atılmışdır. Milli Məclisin 1994-cü il 24 fevral tarixli Qərarı ilə fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilmiş və bu barədə beynəlxalq təşkilatlara məlumat verilmişdir.

Dövlət qurumları, xaricdə yaşayan soydaşlarımız, vətəndaş cəmiyyəti institutları, xüsusən Heydər Əliyev Fondu Xocalı soyqırımının unudulmaması və beynəlxalq ictimaiyyət tərəfindən tanınması üçün əzmlə fəaliyyət göstərmişlər. Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması məqsədilə Heydər Əliyev Fondunun dəstəyi ilə 2008-ci ildə başladılmış “Xocalıya ədalət!” maarifləndirmə kampaniyası çərçivəsində dünyanın bir çox ölkələrində Xocalı faciəsi ilə bağlı məlumatlılıq artırılmış, bir sıra tədbirlər, təqdimatlar, sərgilər keçirilmiş, kitab və məqalələr dərc edilmişdir.

Həmin kampaniya sayəsində 18 ölkənin qanunverici orqanı, ABŞ-nin 24 ştatı, həmçinin İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı Xocalıda baş vermiş faciəni soyqırımı kimi tanımış və pisləmişdir. Hazırda xarici ölkələrdə Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış 10 abidə mövcuddur.

2020-ci ilin sentyabr-noyabr aylarında 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabr ayında birgünlük lokal xarakterli antiterror əməliyyatında Azərbaycan Ordusunun rəşadəti və qəhrəmanlığı sayəsində tarixi torpaqlarımız, o cümlədən Xocalı rayonu işğaldan azad olundu və 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan Bayrağı ucaldıldı.

İşğaldan azad edilmiş bütün ərazilərdə hazırda sürətli bərpa-quruculuq işləri və Böyük Qayıdış prosesi davam etməkdədir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqına qarşı törədilmiş soyqırımının beynəlxalq səviyyədə tanıdılması və Xocalı faciəsi qurbanlarının əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksi yaradılsın.
2. Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 fevral tarixli 479 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.29-cu yarımbəndində göstərilmiş məbləğin 18,3 milyon (on səkkiz milyon üç yüz min) manatı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ayrılsın.
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
4. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi, həmçinin digər aidiyyəti dövlət orqanları (qurumları) Soyqırımı Memorial Kompleksinin yaradılması məsələlərinin həlli ilə bağlı zəruri tədbirlər görsünlər.
5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 fevral 2025-ci il*



# Xocalı: unudulmaz tarix, yenidən doğan şəhər

## Prezident İlham ƏLİYEV:

*"Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu faciə qəlbimizdə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik. Antiterror əməliyyatı nəticəsində Xocalı daxil olmaq şərtilə, bütün o vaxt digər ərazilər – hansılar ki işğal altında idi və separatçılar orada at oynadırdılar, – azad edildi. 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan Bayrağı qaldırıldı. Biz Xocalıda böyük abadlıq işlərinə də start vermişik".*



*(əvvəli 1-ci səhifədə)*

Xocalı faciəsini ekranlardan görmüş gənclər döyüş meydanında hünər göstərmiş, öz qanları bahasına da olsa, əzəli ata-baba torpaqlarımızı düşməndən azad etmişdilər. Bu qalibiyyət uşaqdan-böyüyə hər kəsdə qürur, əzmkarlıq hissi yaratdı. Azərbaycanın üçrəngli Dövlət Bayrağı işğaldan azad edilən torpaqlarda – Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Ağdamda, Laçında, Kəlbəcərdə, Şuşada dalğalandı. Çox mühüm tarixi hadisələr yaşanırdı və biz bu hadisələrin tarixi şahidləri idik.

**Səbirlə, dəqiqliklə hədəfə doğru**

*"Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik".* Ölkə başçısı cənab İlham Əliyevin qətiyyəti, dəqiqliyi, siyasi və diplomatik müstəvidəki uğurları addım-addım bizi Xocalıya yaxınlaşdırırdı.

Xocalı soyqırımının otuzuncu ildönümü haqqında Azərbaycan Respublikasının Prezidenti 2022-ci il 28 yanvar tarixli Sərəncam imzaladı. Ölkə başçısı və birinci xanım Mehriban Əliyevanın da iştirak etdiyi, qanlı faciənin 30-cu ildönümü ilə əlaqədar Xətai rayonunda ucaldılan Xocalı abidəsinin yerləşdiyi əraziyə ümumxalq yürüşü keçirildi. Lakin əvvəlki illərdən fərqli olaraq, alnıaçıq, üzüağ, qalib xalqın nümayəndələri kimi.

2023-cü ilin sentyabrında yüksək peşəkarlıqla həyata keçirilən birgünlük antiterror əməliyyatı ilə dövlətimizin suverenliyi, ərazi bütövlüyümüz tam bərpa olundu. Ərazilərimiz, o cümlədən Xocalı şəhəri separatçılardan təmizləndi. Xocalı faciəsi qurbanlarının qanı yerdə qalmadi, 31 ildən sonra ürəyi nisgilli Xocalı öz gerçək sahiblərini qarşıladı. Oktyabrın 15-də Prezident İlham Əliyev Xocalı şəhərində və rayonun Əsgəran qəsəbəsində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Bu, böyük tarixi nailiyyət idi. Xocalıların yarasına məlhəm olacaq ən böyük nailiyyət. Dünyanın illərlə biganə qaldığı, ədalət tanımadığı Xocalıda ölkə başçısı öz əzmi, iradəsi, siyasi və diplomatik arenada "döyüşü" ilə ədaləti bərpa etmişdi. Dövlətimizin başçısı əsas diqqətini separatçıların qanlı yuvaya çevirdiyi Xocalının qısa zamanda abad, gözəl şəhərə çevrilməsinə, kəndlərinin yenidən canlanmasına yönəltdi. Antiterror əməliyyatından dərhal sonra Xocalının bərpası istiqamətində görülən işlər faciə tarixi yazılmış şəhərin simasını başdan-ayağa dəyişdi. Doğmalarının sığalına həsrət qalmış, sakinləri qədər zülm içində qovrulmuş torpağa can vermək əsas hədəfə çevrildi. Prezidentin Xocalıya hər səfəri bu torpaqların dirçəlişi, özünəqayıdışı, sakinlərinin sevinci ilə əlamətdardır.

2024-cü il 26 fevral tarixdə Xocalı soyqırımının faciə qurbanları elə Xocalıda anıldı. Ölkə başçısı Xocalı şəhərində Heydər Əliyev Fondu tərəfindən yaradılacaq Xocalı Soyqırımı Memorial Kompleksinin təməlini qoymaqla soyqırımı qurbanlarının xatirəsini gələcək nəsillər üçün, eləcə də bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması naminə əbədiləşdirdi. Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə ölkə başçısı bildirdi ki, bu layihə üçün Bakı şəhərində yer də seçilmişdi, lakin mən inanırdım ki, biz buraya qayıdacağıq: *"Mən bilirəm ki, siz xocalılılar o vaxt bütün Azərbaycan xalqı kimi sevinmisiniz. Onu da bilirəm, sizin ürəyinizdə müəyyən fikirlər var idi ki, bəs Xocalı nə olacaq, bəs Xankəndi nə olacaq? Mən bunu bilirdim, ancaq sizə deyə bilmirdim ki, nə olacaq. Halbuki siz də bilirdiniz, mən də bilirəm ki, hər şey ədalətli olacaq. Biz Xocalısız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik".*

"Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" Prezident İlham Əliyevin 2025-ci il 25 fevral tarixli Sərəncamına əsasən Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması məqsədilə Mədəniyyət Nazirliyinə 18,3 milyon manat ayrılıb.

**Böyük Qayıdışın Xocalı səhifəsi**

Ötən il mayın 28-də – Müstəqillik Günündə ölkəmizin bütün bölgələri, həmçinin Xocalı al bayraqlarla bəzədilmişdi. Suverenliyimiz və ərazi bütövlüyümüzün də tam bərpa olunduğu tarixi dönəmdə növbəti müstəqillik gününü qeyd etmək ədalətin təntənəsi idi. Məhz belə bir tarixi günü Prezident cənab İlham Əliyev Xocalı şəhərinə köçən sakinlərlə qeyd edir, onların sevincinə şərik olmaq, xoş gələcəyə inamlarını möhkəmləndirmək üçün. 32 ildən sonra öz doğma yurdlarına qovuşan xocalılılar ölkə başçısına minnətdarlıqlarını bildirir, hədsiz sevinclərini ifadə edirlər.

*"Xocalı soyqırımı abidəsinin, Memorial Kompleksinin yaradılması ilə bağlı uzun illər məsələlər müzakirə edilirdi, hətta "Ana fəryadı" abidəsinin yanında yer də seçilmişdi, layihə də hazırlanmışdı. Ancaq hər il mən son təsdiqimi vermirdim. Çünki ürəyimdə saxlayırdım ki, bu Memorial Kompleks Xocalıda yaradılmalıdır və belə də oldu. Həmin o layihəni biz gətirdik və fevralın 26-da Xocalıda xocalılılarla bərabər Xocalı Memorial Kompleksinin təməli qoyuldu və burada inşa ediləcək. Bütün dünya da görəcək ki, erməni vəhşiliyi nədir, bu, həqiqətdir və bunu hər kəs bilməlidir"*, – deyən ölkə başçısının diqqəti və qayğısı ilə Xocalıda qısa zamanda böyük işlər görülüb.

**"Xocalı gözəl bir park şəhəri olsun"**

Xocalının Baş planı hazırlanarkən şəhərin nəqliyyat qovşağı və logistika mərkəzi kimi inkişaf etdirilməsi nəzərdə tutulub. Bu, Xocalı Beynəlxalq Hava Limanının, respublika əhəmiyyətli avtomobil yollarının və çəkiləcək dəmir yolunun mövcudluğu ilə reallaşacaq. Baş plana əsasən Xocalı bir regional mərkəz kimi davamlı surətdə inkişaf edəcək. Burada bütün zəruri sosial, inzibati xidmətlər, mədəni mühit yaradılacaq, ticarət, ictimai iaşə fəaliyyəti üçün geniş imkanlar açılacaq ki, bu da Xocalıda qaynar həyatı təmin edəcək.

Bununla belə kənd təsərrüfatı, ticarət və sənaye region üçün iqtisadiyyatın dayaqlarını təmin edəcək. Şəhərin ətrafındakı zəngin kənd təsərrüfatı torpaqları, kiçik aqroparkların yaradılması və müxtəlif tikinti materialları istehsalı, yüngül sənaye və qida sənayesi obyektlərinin qurulması ilə şəhərin iqtisadiyyatı şaxələndiriləcək. Bu şaxələnmə, öz növbəsində, əhalinin məşğulluğunun təmin olunmasına da mühüm töhfə verəcəkdir.

Həmçinin qonşu yaşayış məntəqələri – Ağdam, Xankəndi, Şuşa ilə yaxın məsafədə yerləşməsi Xocalını tranzit nöqtəsinə çevirəcək, bölgədə iqtisadi fəaliyyətlərin genişlənməsi yeni investisiyaların cəlb edilməsi baxımından da əhəmiyyətli rol oynayacaq. *"Əsas odur ki, Xocalı gözəl bir park şəhəri olsun"*, – deyə Xocalının inkişafı və yaşıl gələcəyi üçün ən gözəlini düşünən və bunun üçün müvafiq tapşırıqlar verən ölkə başçısının arzuları reallaşdırılır.

**Daha işıqlı və xoşbəxt gələcəyə doğru**

*"Xocalı şəhərini bərpa etmək bizim ən başlıca borcumuz idi. Çünki müharibədən və işğaldan, Birinci Qarabağ müharibəsinin çətin vəziyyətindən əziyyət çəkən ən çox elə xocalılılar olmuşdur, onlara qarşı soyqırımı törədilmişdi. Ona görə Xocalını azad etmək hər zaman gündəlikdə duran məsələ idi".* Bu fikirləri ölkə başçısı bu il fevralın 19-da Xocalı rayonunun Ballıca kəndində bir qrup sakinlə görüşü zamanı deyib. Fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olan Prezident İlham Əliyev bildirib ki, Ballıca kəndi bərpa etdiyimiz və keçmiş köçkünlərin qayıtdığı 10-cu yaşayış məntəqəsidir.

Növbəti köç karvanı fevralın 24-ü Xocalının Ballıca kəndinə çatıb. 95 nəfər (22 ailə) daimi yaşamaq üçün Ballıca kəndindəki fərdi yaşayış evlərinə köçürülüb. Xatırladaq ki, fevralın 4-ü Ballıca kəndində ilk körpə dünyaya gəlib. Yenidən doğulan Xocalıda daha neçə-neçə körpə doğulacaq.

Xocalının bugünkü mənzərəsi gələcəyinin daha işıqlı, daha xoşbəxt, qayğısız olacağını vəd edir. 31 ilin qaranlığından silkinib qısa zamanda aydınlığına qovuşan Xocalı dövlətin qayğısı, geri dönən sakinlərinin sevgisi, şən gülüşləri ilə tarixinin yeni mərhələsini yaşayır. O mərhələsini ki keçmişindən daha aydın, daha parlaq, daha modern bir şəhər olaraq dünyaya gözəllik, sülh, sevgi saçacaqdır.

Lakin o tarix – 26 fevral 1992-ci il heç zaman unudulmayacaqdır!

**Ruhiyyə RƏSULOVA**

# "Pakistan bizim üçün ən yaxın dost və qardaşlardan biridir"

## Bakı görüşü: Azərbaycan-Pakistan strateji tərəfdaşlığında yeni realist hədəflər

*Azərbaycana ən yaxın dost və strateji tərəfdaş ölkələr sırasında Pakistan İslam Respublikası tərəddüdsüz ilk yerlərdə dayanır. Respublikamızın ərazi bütövlüyünü, suverenliyini daim açıq şəkildə dəstəkləyən İslamabad hökumətinin Ermənistanla heç bir diplomatik əlaqələr qurmaması ölkəmizə qarşı sarsılmaz dəstəyin nümayişi olmaqla həm də iki xalq arasında mövcud dərin tarixi, mədəni bağlara sadiqlikdən xəbər verir. 2015-ci il martın 11-14-də Pakistan Prezidenti Məmnun Hüseynin Azərbaycana rəsmi səfəri zamanı imzalanan "Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərini yeni səviyyəyə daşıyıb.*

*44 günlük Vətən müharibəsində Azərbaycanın haqq işinə dəstəyini qətiyyətlə bəyan edən Pakistan müharibədən sonra da respublikamızla çoxtərəfli əlaqələrin inkişafına böyük maraq göstərir. Bu mənada, Prezident İlham Əliyevin ötən il iyulun 11-12-də Pakistana dövlət səfəri, o cümlədən COP29 çərçivəsində liderlərin dialoqları iki ölkə arasındakı strateji tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsi və bütün sahələr üzrə əməkdaşlığın hərtərəfli genişləndirilməsi baxımından vacib qərarların verilməsi ilə tarixi önəm kəsb edir. İkitərəfli əlaqələrdə əməkdaşlığın yeni inkişaf istiqamətlərinin, realist hədəflərin müəyyənləşdirilməsində Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Bakı səfəri də olduqca məhsuldar keçdi. Səfər çərçivəsində liderlər arasında təkbətək, geniştərkibli görüşlər keçirildi, enerji, gömrük, kənd təsərrüfatı, ekologiya, peşə təhsili və digər sahələrə dair 10-dan artıq sənəd imzalandı, Azərbaycan-Pakistan biznes forumu təşkil olundu...*



### Hər iki ölkə beynəlxalq təsisatlarda fəal əməkdaşlığa önəm verir

Tarixi bağları möhkəm olan Azərbaycanla Pakistan müasir dövrdə həm ikitərəfli əməkdaşlığa, həm də siyasi platformalar üzərində regionda sülhün, təhlükəsizliyin təminatı naminə çoxtərəfli əlaqələrin gücləndirilməsinə mühüm töhfələr verir, beynəlxalq təşkilatlar vasitəsilə bir-birinin maraqlarının fəal müdafiəçisinə çevrilirlər. Bu xüsusda onu vurğulamaq yerinə düşər ki, hələ 1993-cü ilin aprelində Ermənistan tərəfindən Kəlbəcərin işğal edilməsi məsələsi BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarılanda Azərbaycanın ərazi bütövlüyünün bərpasını tələb edən 822 saylı qətnamənin qəbul edildiyi iclasa məhz Pakistan sədrlik etmişdi.Və həmin vaxtdan etibarən ölkəmizə olan rəğbətin və hörmətin ifadəsi olaraq İslamabad hökuməti daim Ermənistanı işğalçı dövlət kimi pisləyərək onunla heç bir əlaqənin qurulmasına razı olmayıb. Eyni dəstəyi Azərbaycan da qardaş respublika üçün nümayiş etdirib, Kəşmir məsələsində daim İslamabadın haqlı mövqeyini gündəmə gətirib.

Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) müşahidəçi status alması üçün müraciətinə, COP29-a ev sahibliyi missiyasına dəstəklə Pakistan ölkəmizə olan sonsuz hörmət və ehtiramını bəyan edib. Bu gün ölkələrimiz arasında münasibətlərin dərinləşməsində, iqtisadi, mədəni əlaqələrin gücləndirilməsində İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, o cümlədən ötən il Azərbaycanın üzv olduğu D8-in rolu böyükdür. Məhz bütün bunların məntiqi nəticəsidir ki, fevralın 24-də keçirilən təkbətək və geniştərkibli görüşlərin ardından mətbuata bəyanatda hər iki ölkə lideri tərəfindən beynəlxalq təsisatlarda fəal əməkdaşlıq münasibətlərin dərinləşdirilməsi baxımından diqqətə çəkilən ilk amil oldu. Sitat: ***"İki qardaş ölkə olaraq biz beynəlxalq münasibətlərin bütün məsələlərində bir-birimizə dəstəyi davam etdirəcəyik. Biz ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsində bir-birimizə qarşılıqlı surətdə dəstək veririk, beynəlxalq təsisatlarda fəal əməkdaşlıq edirik və iştirak etdiyimiz bütün beynəlxalq təşkilatlarda daim bir-birimizi dəstəkləyirik".***

### Azərbaycan-Pakistan biznes forumu iqtisadi əlaqələrə dair geniş perspektivlər açdı

Dövlətlərarası münasibətlər, ölkələrarası maraqlar ticarət və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsini vacib sayır, vahid məqsəd naminə birgə bir sıra layihələrin reallaşdırılmasını şərtləndirir. Həm coğrafiya, həm də təcrübə baxımından hər iki respublikanın bir-biri üçün müxtəlif sahələrə dair güclü potensialda olması, bu mənada, yeni perspektivlər açır. Belə ki, Azərbaycanla Pakistanın kənd təsərrüfatı, enerji, əczaçılıq, ticarət, tikinti, nəqliyyat, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığına dair əlverişli imkanlar vardır.

Bunlar arasında Pakistanda çox inkişaf etmiş əczaçılıq sahəsinə diqqəti çəkmək olar ki, bu gün dost ölkədə istehsal olunan 90 adda məhsul Azərbaycanda qeydiyyatdan keçirilib. Gələcəkdə bu sahədə birgə müəssisənin qurulması da plandadır. Eyni zamanda Azərbaycanın neft-qaz sənayesində qazandığı təcrübə və enerji resursları Pakistan üçün mühüm əhəmiyyətə malikdir. Bütün bu aspektlərdən yanaşdıqda deyə bilərik ki, Azərbaycanla Pakistanın strateji əməkdaşlığı hər iki ölkəyə böyük dividendlər gətirir və gətirəcək də. Keçirilən müxtəlif səviyyəli görüşlər, iqtisadi forumlar, konfranslar və hökumətlərarası komissiya iclasları isə bunun üçün əlverişli platforma rolunu oynayır.

Fevralın 24-də Bakıda keçirilən Azərbaycan-Pakistan biznes forumu da önəmli qərarları ilə gələcək iqtisadi əlaqələrin gücləndirilməsi üçün geniş perspektivlər açdı. Forum çərçivəsində Bakıda Pakistan Ticarət Palatası nümayəndəliyinin təsisinə dair razılaşma əldə olundu ki, bu da tərəflərin iqtisadi sahələrinə potensial sərmayədarların cəlbi, biznes təmasları, sahibkarlar üçün yeni layihələrin təqdimatı baxımından olduqca uğurlu addımdır. İkitərəfli əlaqələrin gücləndirilməsindən, ticarət dövriyyəsinin artımından danışan zaman regional və beynəlxalq sülhə xidmət edən yük daşımalarının roluna diqqəti çəkməsək olmaz.

Bu xüsusda Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzi kimi Azərbaycan bir sıra region ölkələri, o cümlədən də Pakistan üçün əməkdaşlıq baxımından cəlbedicidir. Prezident İlham Əliyev biznes forumda çıxışı zamanı nəqliyyat sektorunda da əlaqələri nəzərdən keçirdiklərini vurğuladı: ***"Azərbaycan öz ərazisində iki mühüm beynəlxalq dəhlizi təşviq edir – Şərq-Qərb və Şimal-Cənub. Azərbaycan hər iki dəhlizin marşrutu üzərində yerləşir, fəal üzvdür və bağlantı nöqtələrini yaratmaqla biz daha geniş imkanlar təqdim edə biləcəyik. Bununla bağlı nəqliyyat sahəsinə məsul olan şəxslərə müvafiq təlimatlar verilib ki, regional əməkdaşlığa daha geniş yanaşaq, limanlarımız, dəmir yolu qurumları arasında təmaslarımız yaransın və daha geniş mənada nəqliyyat sahəsində əməkdaşlıq təmin edilsin".***

Dünyada silahlı qüvvələrinin gücünə görə ilk onluqda yer alan Pakistanla müharibədən qalib çıxmış Cənubi Qafqazın lider dövləti Azərbaycanı həm də hərbi sahədə əməkdaşlıq yaxınlaşdırır. Bu əməkdaşlıq, sözsüz ki, regional və beynəlxalq səviyyədə sülhə, təhlükəsizliyə xidmət kimi qəbul olunur. Qarşılıqlı səfərlər zamanı aparılan dialoqlar, müxtəlif sərgilər, təlimlər vasitəsilə təcrübənin öyrənilməsi, əldə olunan razılaşmalar əlaqələrin güclənməsinə təkan verir. Bu baxımdan Prezident İlham Əliyevin ötən il iyulun 12-də İslamabadda Pakistanın "Milli Aerokosmik Elm və Texnologiya Parkı"ndakı hərbi sərgi ilə tanışlığı iki ölkə arasında hərbi və texnoloji sahədə əlaqələrin güclənməsi yönündə mühüm addım oldu. Hərbi əməkdaşlığın ən son və mühüm nailiyyətlərindən biri 2024-cü ildə Azərbaycanın Pakistan Aviasiya Kompleksi və Chengdu Çin Aviasiya Korporasiyasının birgə layihəsi olaraq hazırlanmış müasir, yüngülçəkili, istənilən hava şəraitinə uyğun, gündüz və gecə rejimli JF-17C çoxməqsədli döyüş təyyarələrini əldə etməsidir. Məlum olduğu üzrə 44 günlük Vətən müharibəsindən sonra ölkəmizin qarşısındakı əsas hədəflərdən biri məhz müdafiə qabiliyyətinin artırılması, hərbi infrastrukturun, müasirləşdirilməsi, arsenalın ən yeni silah və texnikalarla zənginləşdirilməsidir. 2025-ci ilin dövlət büdcəsində hərbi xərclərin rekord göstərici – 8,4 milyard manat təşkil etməsi də məhz bu məqsədə xidmət edir.

Respublikamız hərbi avadanlıqların təkcə idxalını deyil, ixracını da qarşıda mühüm vəzifə kimi qoyub və təqdirəlayiq haldır ki, istehsal olunan müdafiə sənayesi məhsullarımız artıq 30-dan çox ölkəyə satılır. Fevralın 24-də Azərbaycan və Pakistan liderlərinin görüşlərində də müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsi, birgə istehsal müəssisəsinin yaradılmasına dair məsələlər əsas müzakirə mövzularından oldu. Prezident İlham Əliyev mətbuata bəyanatında həmin məqama xüsusi toxundu, birgə istehsal ilə ixracyönümlü təchizatın artacağını vurğuladı: ***"Bu gün müzakirə etdiyimiz məsələlər arasında əsas hissə müdafiə, eləcə də müdafiə sənayesi sahələrində əməkdaşlığa həsr olunmuşdur. Azərbaycan Pakistandan müdafiə sənayesinin istehsal etdiyi avadanlığı artıq alıb və biz onun keyfiyyətindən çox razıyıq və birmənalı olaraq, bu işi davam etdirəcəyik. Eyni zamanda biz müdafiə sənayesi məhsullarının birgə istehsalı imkanlarını müzakirə etdik və bu, əməkdaşlığımızın digər mühüm sektoru olacaq".***

Ümumilikdə, onu deyə bilərik ki, əvvəlki görüşlərdə olduğu kimi, Azərbaycan və Pakistan liderlərinin 24 fevral – Bakı dialoqu da olduqca uğurlu, gələcəyə dair yeni əməkdaşlıq istiqamətlərinin açılması ilə yadda qaldı. Tarixi bağlar, mədəni dəyərlər üzərindən inşa olunan qardaşlıq və dostluq münasibətlərinin yeni strateji hədəfləri müəyyən edildi, birgə fəaliyyət planı tərtib olundu. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Bütövlükdə, bu dinamika, əslində, ölkələrimiz arasında sıx münasibətləri əks etdirir. Bu gün biz ikitərəfli gündəliyə aid çox mühüm məsələləri müzakirə etdik və ölkələrimiz arasında sıx tərəfdaşlığın vacibliyini bir daha qeyd etdik, ölkələrimiz, xalqlarımız və təmsil etdiyimiz regionlar üçün əməkdaşlığımızın strateji əhəmiyyətini bir daha vurğuladıq".***

**Nail ƏSGƏROV**

# Mühüm siyasi və iqtisadi maraqları kəsişdirən meqa layihə – Cənub Qaz Dəhlizi

## Prezident İlham ƏLİYEV:

***“Bu layihə, həqiqətən də, uğur hekayəsidir. Bu, Avrasiyada ən böyük infrastruktur layihələrindən biridir.”***



Azərbaycanın mühüm geostrateji ərazidə – Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin mərkəzində yerləşməsi, ən vacibi də aparılan uğurlu diplomatiya sayəsində mövcud mövqe və təbii ehtiyatlardan səmərəli istifadə dövlətimizin irəli sürdüyü təşəbbüslərin qısa zamanda uğur qazanmasını şərtləndirir. Bu xüsusda 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanması ilə başlanan və hazırda enerji resurslarının, enerji təchizatının və tədarük bazarlarının şaxələndirilməsi nəticəsində miqyası xeyli genişləndirilən enerji strategiyasının rolunu qeyd etmək lazımdır. Həmin strategiyanın tərkib hissəsi kimi reallaşdırılan layihələr hazırda respublikamızı Cənubi Qafqazın lideri olaraq regionda əsl söz, nüfuz, beynəlxalq aləmdə hörmət və etimad sahibi edib. Prezident İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, bu gün regionumuzda Azərbaycanın iştirakı və ya razılığı olmadan heç bir layihə həyata keçirilə bilməz. Sitat: ***“Bizim istər nəqliyyat, istərsə də enerji sahəsində təşəbbüskarı olduğumuz layihələr təkcə Azərbaycanda yox, bütün bu layihəyə cəlb olunmuş ölkələrdə minlərlə, on minlərlə iş yeri yaradır. Biz ənənəvi dəyərlərimizə, əcdadlarımızdan bizə miras qalan dəyərlərə sadiq olmağa davam edəcəyik. Budur bizim gücümüzün mənbəyi və biz ənənəvi dəyərlərimizi istənilən xarici müdaxilədən, qloballaşma vasitəsilə Azərbaycanın siyasi və ya iqtisadi inkişafına təsir etmək cəhdlərindən çox fəal şəkildə qoruyuruq. Biz kimliyimizi, müstəqilliyimizi qorumağa davam edəcəyik və rəyi, hətta bu gün olduğundan da mühüm olan daha güclü ölkə quracağıq. Baxmayaraq, deyə bilərəm ki, hətta bu gün regionumuzda Azərbaycanın iştirakı və ya razılığı olmadan heç bir layihə həyata keçirilə bilməz”.***

Azərbaycanın müəllifi olduğu və XXI əsrin meqa layihələrindən sayılan Cənub Qaz Dəhlizinin enerji strategiyasındakı çəkisi ağır, yeri və rolu olduqca mühümdür. CQD-nin əsas məqsədi “Şahdəniz” qaz-kondensat yatağının istismarının ikinci mərhələsi çərçivəsində hasil edilən təbii qazın genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP vasitəsilə Türkiyəyə və Cənubi Avropaya ixracını təmin etməkdir. Təməli “Əsrin müqaviləsi”nin 20 illiyi qeyd edilən gün – 2014-cü ilin sentyabrın 20-də qoyulan, 2018-ci il mayın 29-da rəsmi açılışı olan layihənin ümumi dəyəri 33 milyard ABŞ dollarıdır. Azərbaycandan İtaliyayadək uzanan, 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi 7 ölkənin iştirakı ilə qurulub və ilbəil yeni interkonnektorlarla bu sistemə qoşulmaq təşəbbüsləri çoxalır. Nəticə etibarilə, Azərbaycan bu gün Cənub Qaz Dəhlizi vasitəsilə 10 Avropa ölkəsinə qaz ixrac edir ki, onlardan 8-i Avropa İttifaqının üzvüdür. Bu baxımdan təsadüfi deyildir ki, Aİ liderləri tərəfindən Azərbaycan “etibarlı tərəfdaş qaz təchizatçısı” kimi tanınır. Təqdirəlayiq hal ondadır ki, Avropa ölkələri hər zaman birgə əməkdaşlığa can atan tərəf kimi daha çox ön plandadırlar, müxtəlif siyasi platformalarda, forum və görüşlərdə enerji hasilatını artırmaq üçün təşəbbüslər irəli sürür, təkliflər edirlər. 2022-ci ilin iyulun 18-də Azərbaycan və Avropa Komissiyası arasında “Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu”nun imzalanması da bu fikirlərin təsdiqidir. Azərbaycan tərəfindən təşəbbüslərin dəstəklənməsi nəticəsində yeni interkonnektorların da qoşulması ilə ötən iki-üç ildə qaz ixracatında əhəmiyyətli artım göstəricisinə nail olunub. Belə ki, 2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetr qaz ixrac etmişdirsə, bu rəqəm 2022-ci ildə 11,4 milyard, 2023-cü ildə, təxminən, 12 milyard, 2024-cü ildə isə 12,9 milyard kubmetr təşkil edib. Əldə edilən razılaşmaya əsasən 2027-ci ilə qədər Azərbaycan qazının tədarükü ildə azı 20 milyard kubmetrə çatmalıdır. Azərbaycan, həmçinin ötən il Türkiyəyə 9,9 milyard, Gürcüstana isə 2,4 milyard kubmetr təbii qaz ixrac edib.

“Qoca qitə”nin enerji təhlükəsizliyinə ciddi töhfələr verən Cənub Qaz Dəhlizi təkcə iqtisadi deyil, həm də siyasi cəhətdən daim dünyanın aparıcı dövlətlərinin xüsusi marağındadır. Bu baxımdan Avropa İttifaqı ilə yanaşı, ABŞ-nin layihənin reallaşması yönündə verdiyi mühüm dəstəyi də diqqətə çəkmək olar. Xüsusən də Donald Trampın birinci hakimiyyəti dövrü CQD-nin reallaşması istiqamətində ciddi addımların atılması ilə nəticələnib. Tramp layihənin rəsmi açılışı olduğu 2018-ci ildə Prezident İlham Əliyevə ünvanladığı məktubda həmin ili enerji sahəsində uzun müddətdir, davam edən ABŞ-Azərbaycan əməkdaşlığında inanılmaz bir nailiyyət kimi dəyərləndirib: “Enerji sahəsində illərlə davam edən əməkdaşlığımız bu il, inanılmaz bir nailiyyət kimi, Avropanın zəruri enerji təhlükəsizliyini təmin edəcək ilk qazın Cənub Qaz Dəhlizi vasitəsilə nəqli sayəsində zirvəyə yüksəlmişdir”. Bəli, dünyanın “super gücü”nün başında duran şəxsin Azərbaycanın təşəbbüsünü bu cür yüksək qiymətləndirməsi, dəstək verməsi, həqiqətən də, mühüm faktordur və dəhliz boyu enerji ixracında coğrafi şaxələnmənin təminində təkan rolunu oynayır.

Cənub Qaz Dəhlizi artıq qitələri birləşdirən, ölkələrarası siyasi yaxınlaşmanı təmin edən, mədəni əlaqələri gücləndirən, iqtisadi əməkdaşlığı dərinləşdirən universal beynəlxalq platformaya çevrilib. 2015-ci ildən başlayaraq hər il Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində görüşlər təşkil olunur, görülmüş işlər və qarşıda duran məsələlərin həlli baxımından görüləcək əlavə tədbirlər nəzərdən keçirilir. Ənənə halını alan bu görüşlər həm də çoxtərəfli əməkdaşlıqlar üçün yeni tezislər müəyyənləşdirir, perspektivlərin açılmasına şərait yaradır. Prezident cənab İlham Əliyev 2020-ci il dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə TAP layihəsinin tamamlanması ilə tam fəaliyyətə başlayan dəhlizi uğur hekayəsi adlandırıb: ***“Cənub Qaz Dəhlizi artıq 3 ildir ki, fəaliyyətdədir, bu layihə, həqiqətən də, uğur hekayəsidir. Bu, Avrasiyada ən böyük infrastruktur layihələrindən biridir. Uzunluğu 3500 kilometr olan inteqrasiya edilmiş boru kəməri sistemi olan bu layihə enerji təhlükəsizliyi və əməkdaşlıq layihəsidir. Çünki Cənub Qaz Dəhlizinin keçdiyi marşrut boyunca yerləşən bütün ölkələr arasında əməkdaşlıq olmasa, bu layihənin həyata keçirilməsi mümkün olmazdı”.*** Bəli, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə atılan bu addım həm də layihədə iştirak edən 7 ölkə – Azərbaycan, Türkiyə, Gürcüstan, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliyanın komanda şəklində qazandığı nailiyyət timsalında dünyaya ünvanlanan həmrəylik mesajı idi.

Azərbaycanın təşəbbüsü ilə reallaşan meqa layihə – Cənub Qaz Dəhlizi regionun hazırkı mürəkkəb geosiyasi vəziyyəti fonunda Avropa ölkələrinin enerji tələbatını ödəməklə paralel, iqtisadiyyatımızın müxtəlif sahələrində inkişafa əhəmiyyətli təsir göstərir. Və əsası 1994-cü ildə qoyulan enerji strategiyasının yeni müstəvidə uğurlu icrasının nəticəsidir ki, milli təhlükəsizliyi təmin olunan, iqtisadi cəhətdən qüdrətlənən respublikamız dünya miqyasında sözünün arxasında duran, müstəqil siyasət yürüdən nadir dövlətlərdən birinə çevrilib, etibarlı tərəfdaş imicinə sahib olub. Prezident İlham Əliyevin də dediyi kimi: ***“Hesab edirəm ki, Azərbaycan etibarlı tərəfdaş olduğunu artıq sübut edib. Bizim sözümüz imzamız qədər dəyərlidir. Əminəm ki, qarşımıza qoyduğumuz bütün planlar həyata keçiriləcəkdir”.***

**Nail ƏSGƏROV**

# Naxçıvanda Xocalı faciəsi qurbanlarının xatirəsi yad edilib






Fevralın 26-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət rəsmiləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları və ictimaiyyət nümayəndələri Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə Kompleksini ziyarət ediblər.

Abidə önünə güllər qoyulub, Xocalıda soyqırımına məruz qalmış soydaşlarımızın xatirəsinə ehtiram ifadə olunub.

## Səlahiyyətli nümayəndə "YAŞAT" Fondunun "Qış düşərgəsi"nin iştirakçıları ilə görüşüb




Fevralın 26-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli "YAŞAT" Fondunun Naxçıvanda təşkil etdiyi "Qış düşərgəsi"ndə iştirak edən şəhid övladları ilə görüşüb.

Fuad Nəcəfli Xocalı soyqırımı zamanı həlak olmuş soydaşlarımızın xatirəsini anıb və bildirib ki, Azərbaycan artıq Qarabağ problemini həll edib, Xocalı faciəsi qurbanlarının qisasını alıb, suverenliyini təmin edib. Ümummilli Liderimiz Heydər Əliyevin yolunu uğurla davam etdirən ölkə başçısı, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə bu gün Xankəndidə, Ağdamda, Qarabağda geniş quruculuq işləri görülür, Böyük Qayıdış konsepsiyası həyata keçirilir. Bütün bunlar istər Birinci, istərsə də İkinci Qarabağ müharibələrində şücaət göstərən qəhrəman şəhid və qazilərimizin sayəsində əldə olunub. Dövlətimiz Vətən fədailərinin qəhrəmanlıqlarını unutmur, onların övladlarını daim xüsusi qayğı ilə təmin edir. "YAŞAT" Fondunun bu layihəsi də bu qayğının davamı kimi mühüm əhəmiyyət kəsb edir.

Ötən il "YAŞAT" Fondunun Naxçıvanda təşkil etdiyi "Yay düşərgəsi"ni xatırlayan səlahiyyətli nümayəndə layihəni şəhid övladlarının təcrübə və geniş dünyagörüşü əldə etməsi, ən əsası isə yeni dostluq münasibətləri qurması baxımından yüksək qiymətləndirib, düşərgə iştirakçılarına xoş istirahət və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

"YAŞAT" Fondunun rəhbəri Elvin Hüseynov görüşdə iştirak edən gənclərin qəhrəman ataları ilə birgə döyüş xatirələrindən danışıb, onların əmanətlərinə xüsusi qayğı ilə yanaşıldığını qürur hissi ilə qeyd edib, layihənin təşkilinə verilən dəstəyə görə minnətdarlığını ifadə edib.

Səmimi söhbət zamanı şəhid övladları təəssüratlarını paylaşıb, düşərgənin təşkilində əməyi olanlara minnətdarlıqlarını bildiriblər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev ölkəmizdə ilk dəfə Naxçıvanda şəhid övladlarının iştirakı ilə "Qış düşərgəsi"nin təşkil olunduğunu diqqətə çatdırıb.

Sonra düşərgə iştirakçıları ilə xatirə fotosu çəkdirilib.

Qeyd edək ki, "YAŞAT" Fondunun təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının dəstəyi ilə bir qrup şəhid övladı Ağbulaq İstirahət Mərkəzində təşkil olunan "Qış düşərgəsi"ndə iştirak edir.

## Naxçıvanda Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb



*Fevralın 26-da saat $17^{00}$-da Azərbaycanın bütün ərazisində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

*Bununla bağlı Naxçıvan Muxtar Respublikası ərazisində nəqliyyatın və piyadaların hərəkəti bir dəqiqəlik dayandırılıb. Eyni zamanda avtomobillər siqnal veriblər.*

*Qeyd edək ki, fevralın 26-sı Xocalı soyqırımının 33-cü ildönümüdür.*

## Naxçıvan Hərbi Kollecində "Konstitusiya və Suverenlik İli" çərçivəsində tədbir keçirilib







Fevralın 24-də Naxçıvan Hərbi Kollecinin və Naxçıvan Hərbi Prokurorluğunun birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Vətənə sədaqət müqəddəsdir" və "Vətəni müdafiə hər bir vətəndaşın borcudur" mövzularında tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində kursantların tədris şəraiti və dərslərlə, kollecin kitabxanasında təşkil olunmuş kitab və jurnal sərgisi ilə tanış olublar.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra vətənpərvərlik mövzusunda videoçarx nümayiş olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edərək bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə bu ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi hər bir vətəndaşın, xüsusilə hərbi qulluqçuların və kursant həyatının Konstitusiya dəyərlərinə, milli



suverenliyə və yüksək vətənpərvərlik ruhuna olan bağlılığını daha da möhkəmləndirəcək.

Kursantlara təhsillərində uğurlar arzulayan Samir Seyidəhmədli onların Naxçıvan Hərbi Kollecinin adını yüksək tutaraq göstərilən etimadı doğruldacaqlarına əminliyini ifadə edib. Vurğulanıb ki, Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində 2 il davam edən tədris dövründə kursantların qidalanması, təhsili, sosial təminatı və asudə vaxtının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılıb.

Naxçıvan hərbi prokuroru, ədliyyə polkovnik-leytenantı Aqil Axundov dövlət başçısının Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunmasının əhəmiyyətindən danışıb. Qeyd edib ki, Azərbaycan Konstitusiyası ölkənin hüquqi və siyasi sisteminin təməlini təşkil edərək hüquq sisteminin bütövlüyünü və sabitliyini təmin edir.

Naxçıvan Hərbi Kollecinin rəisi, polkovnik-leytenant Yaşar Hüseynov hərbi kollecin qısa zamanda böyük uğurlara imza atdığını vurğulayıb. Bildirib ki, cari tədris ilində muxtar respublikanın bütün dövlət orqanları, eləcə də media nümayəndələri ilə hərbi kollec arasında əlaqələr qurulub, birgə layihələr icra olunaraq tədbirlər keçirilib.

Sonda Ulu Öndər Heydər Əliyevin və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Konstitusiyamızın qəbulu, suverenliyimizin bərpasına dair tarixi xidmətlərindən bəhs edən qısametrajlı videoçarx nümayiş olunub, xatirə şəkli çəkdirilib.

# Azərbaycan xalqının birliyinin, milli təəssübkeşliyinin simvolu

***Otuz üçüncü ildir ki, xalqımız bu qanlı cinayətin – Xocalı soyqırımının mənəvi ağrısını, ağlasığmaz dəhşətlərini qəlbində yaşadır.***

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndidə yerləşən keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın hərbi mütəxəssisləri və xeyli canlı qüvvəsi ilə Xocalını mühasirəyə aldı. Ermənilər ən müasir silahlarla şəhərə hücum edərək bu qədim Azərbaycan torpağını yerləyeksan etdilər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdıldı.



**Qalib İSMAYILOV**
*Naxçıvan şəhər prokuroru, baş ədliyyə müşaviri*

Azərbaycan Respublikasının prokurorluq orqanlarında 1988-ci ildən Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağda və ətrafındakı digər işğal olunmuş ərazilərdə, həmçinin Ermənistanda saxlanılan azərbaycanlı əsir və girovlara dözülməz işgəncələr verilməsi, onların bir qisminin öldürülməsi, şikəst edilməsi, təxribat və terror aktlarının törədilməsi, əhalinin məcburi köçürülməsi, yaşayış məntəqələrindəki maddi sərvətlərin, tarixi mədəniyyət abidələrinin dağıdılması, habelə ermənilər tərəfindən həyata keçirilən digər ağır cinayət faktları ilə əlaqədar ayrı-ayrı cinayət işləri başlanılaraq istintaq aparılmışdır.

Xalqımıza qarşı törədilmiş ağır cinayətlərin istintaqı və onlara hüquqi qiymət verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş təqsirkar şəxslərin müəyyənləşdirilib mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb olunması, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədilə Azərbaycan Respublikası Baş prokurorunun, daxili işlər naziri və Dövlət Təhlükəsizlik Xidməti rəisinin əmri ilə birgə istintaq-əməliyyat qrupu yaradılmışdır. Qeyd edilən cinayətlər üzrə müxtəlif vaxtlarda icraatı dayandırılmış cinayət işləri üzrə icraat təzələnməklə istintaq aparılması həmin qrupa həvalə edilmişdir. Həmin cinayət işlərinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin, Cinayət-Prosessual Məcəlləsinin tələblərinə uyğun həyata keçirilməsini, işin hərtərəfli, tam və obyektiv aparılmasını, səmərəliliyini, operativliyini təmin etmək məqsədilə müəyyən işlər görülüb, vahid istintaq-əməliyyat planı hazırlanaraq təsdiq edilib. Həmin planda cinayət işinə birləşdirilmiş hər bir iş üzrə araşdırılmalı xüsusatlar, həyata keçirilməli istintaq hərəkətlərinin tarixi ayrı-ayrı bəndlərdə öz əksini tapmışdır.

Ümumilikdə, Xocalı soyqırımı üzrə aparılan istintaq zamanı 7000-ə yaxın istintaq hərəkəti icra edilmiş, o cümlədən 1771 nəfər şahid, 2699 nəfər zərərçəkmiş şəxs qismində olmaqla, ümumilikdə, 4470 nəfər dindirilmiş, 800-dən artıq müxtəlif növ ekspertizalar təyin olunmaqla keçirilmiş və digər zəruri istintaq hərəkətləri icra edilmişdir. Aparılan istintaqla Xocalıya hücum edən hərbi qulluqçuların və digər şəxslərin soyqırımıda iştirakı tam sübuta yetirilmiş və onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Soyqırım", "İşgəncə", "Əhalini deportasiya etmə və ya məcburi köçürmə", "Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma" və digər cinayətlərə görə məsuliyyət nəzərdə tutan maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələri barədə müvafiq qərarlar qəbul olunmuşdur. Bunlardan başqa, cinayət işi üzrə keçirilmiş "Kompleks məhkəmə tikinti-texniki və əmtəəşünaslıq ekspertizası"nın rəyindən isə belə məlum olmuşdur ki, qanunsuz erməni silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar dövlət əmlakının və xüsusi mülkiyyətdə olan əmlakın məhv edilməsi, talan edilməsi ilə bağlı Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulub.

Aparılan istintaqla o da müəyyən edilmişdir ki, beynəlxalq humanitar hüquq normalarına, insan hüquqları üzrə ən müxtəlif konvensiyalara məhəl qoymayan erməni hərbi birləşmələri dinc əhalini qətlə yetirmək məqsədilə insanlığa ləkə olan ən qəddar üsullara əl atmışlar. Xocalıdan qaçan əhalinin Naxçıvanlı kəndi ərazilərində pulemyot, avtomat və başqa atıcı silahlardan güllələbaran edilməsi bunu bir daha təsdiqləyir.

İstintaqla, həmçinin müəyyən edilmişdir ki, ermənilər beynəlxalq humanitar hüquqda yolverilməz sayılan soyqırımı cinayətinə şüurlu, məqsədli şəkildə, bilərəkdən əl ataraq misli görünməmiş qətliamlar törətmişlər. BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 saylı qətnaməsində qeyd olunur ki, genosid insan qruplarının yaşamaq hüququnu tanımamaqla insan mənliyini təhqir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dayaqlardan məhrum edir. Belə bədnam əməllər BMT-nin məqsəd və vəzifələrinə tamamilə ziddir. BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 saylı qətnaməsi ilə qəbul edilmiş və 1961-ci ildə qüvvəyə minmiş "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada genosid cinayətinin hüquqi əsası təsbit olunub.

Ermənistanın müharibə zamanı davranış normalarını müəyyənləşdirən beynəlxalq hüquq normalarına məhəl qoymaması ilə bağlı faktlar sadaladıqlarımızla məhdudlaşmır. Beynəlxalq humanitar hüququn tələblərinə əsasən müharibə yalnız silahlı münaqişədə olan tərəflərin silahlı qüvvələri arasında aparılmalıdır. Mülki əhali döyüşlərdə iştirak etməməli və onlarla hörmətlə davranılmalıdır. "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" IV Cenevrə Konvensiyasının 3-cü maddəsinə əsasən mülki əhalinin həyatına və təhlükəsizliyinə qəsd, o cümlədən onların hər cür öldürülməsi, şikəst edilməsi, onlarla qəddar davranış, əzab və işgəncə verilməsi, insan ləyaqətinə qəsd, təhqir və alçaldıcı hərəkətlər qadağan edilir. Konvensiyanın 33-cü maddəsində qeyd olunur ki, heç bir mülki şəxs törətmədiyi hüquq pozuntusuna görə cəzalandırıla bilməz. Mülki əhaliyə qarşı kollektiv cəza tədbirlərinin görülməsi, mülki əhalini qorxuya salmaq, onlara qarşı terror hərəkətləri, onların repressiyaya məruz qoyulması birmənalı şəkildə qadağan edilir. Həmin konvensiyanın 34-cü maddəsinə görə, mülki əhalinin girov götürülməsi qadağandır. Lakin təkcə Xocalıda mindən artıq insanı girov götürən ermənilər bu prinsipə aşkar sayğısızlıq nümayiş etdirmişlər. Ermənistan silahlı qüvvələri bu hüquq normalarına məhəl qoymayaraq Xocalıda dinc əhalinin məhvi üçün qəddar üsula əl ataraq "Soyqırımı cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" 1948-ci il 9 dekabr tarixli Konvensiyada və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü maddəsində nəzərdə tutulmuş soyqırımı cinayətini törətmişlər.

Cinayət işinin istintaqı ilə müəyyən edilmişdir ki, Xocalı soyqırımını həyata keçirən Ermənistan hərbi birləşmələri, Dağlıq Qarabağdakı silahlı separatçı birləşmələr SSRİ-nin Xankəndidə yerləşən 366-cı alayının hərbçiləri tərəfindən dünya dövlətlərinin qəbul etdiyi beynəlxalq hüquq normalarına da riayət etməmişlər. Belə ki, 12 avqust 1949-cu il tarixli "Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında", "Hərbi əsirlərlə rəftar haqqında" və "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" Cenevrə konvensiyalarının müvafiq maddələrində nəzərdə tutulan döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərə qarşı onların həyatına və şəxsiyyətinə qəsd etmək, o cümlədən hər hansı şəraitdə öldürmək, şikəst etmək, qəddarcasına rəftar etmək və işgəncə vermək, girov götürmək, insan ləyaqətinə toxunmaq, o cümlədən təhqiramiz və alçaldıcı tərzdə rəftar etmək kimi qadağalara məhəl qoyulmamışdır. İbtidai istintaqla 366-cı alayın hərbi qulluqçularının və digər şəxslərin Xocalı soyqırımında iştirakı tam sübuta yetirilmiş, onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Soyqırım", "İşgəncə", "Əhalini deportasiya etmə və ya məcburi köçürmə", "Cinsi zorakılıq" maddələri ilə nəzərdə tutulmuş cinayətləri etməkdə təqsirləndirilən şəxslər kimi cəlb olunmaları barədə qərarlar qəbul edilməklə barələrində həbs qətimkan tədbiri seçilmiş və beynəlxalq axtarışlarının həyata keçirilməsi üçün müvafiq sənədlər İnterpolun Azərbaycan Respublikası Milli Bürosuna göndərilmişdir.

Uzun illər Azərbaycan dövləti Xocalı faciəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması istiqamətində sistemli iş aparmışdır. Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıtdıqdan sonra açıqlanmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir.

Prezident cənab İlham Əliyev tərəfindən Xocalı soyqırımını törədənlərin ifşa olunması və beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılması Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilmiş, eləcə də Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, bu soyqırımına obyektiv qiymət verilməsi məqsədilə davamlı addımlar atılmaqdadır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərməkdədir. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırmış, faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılmaqla planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olmuşdur. Bütün bunların nəticəsidir ki, indiyədək 17 dövlətin milli qanunvericilik orqanı, həmçinin ABŞ-nin 23 ştatı Xocalıda dinc əhalinin qətliamını pisləyən və bunu insanlıq əleyhinə cinayət aktı kimi dəyərləndirən qətnamə və qərarlar qəbul etmişlər. Eyni zamanda İslam Əməkdaşlıq Təşkilatında və Türk Dövlətləri Təşkilatında Xocalı soyqırımının kəskin şəkildə pislənilməsini ehtiva edən qətnamə və bəyanatlar qəbul olunmuşdur.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı parlaq Qələbə 2020-ci ili Azərbaycan tarixinə Zəfər ili kimi yazdı. Güclü siyasi iradə, möhkəm iqtisadi potensial, qüdrətli ordu, xalq-lider vəhdəti, cəmiyyətdəki böyük ruh yüksəkliyi, vətənpərvərlik, əzmkarlıq tarixi Qələbəni təmin etdi. Otuzillik həsrət bitdi, torpaqlarımız mənfur düşmənin işğalından azad edildi, ərazi bütövlüyümüz, suverenliyimiz təmin olundu. Bu gün xalqımız Xocalı soyqırımını alnıaçıq, başıuca yad edir, çünki düşməndən bütün şəhidlərimiz kimi, Xocalı soyqırımı qurbanlarının da qisası alınmışdır. Artıq Xocalı soyqırımının anım günü Azərbaycan xalqının birliyinin, milli təəssübkeşliyinin simvoluna çevrilib.








## Türkiyəli alpinistlər Xocalı faciəsi qurbanlarını anmaq üçün Haçadağa yürüş edib

Fevralın 22-də Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar olaraq Türkiyədən gələn alpinist qrupları və Naxçıvandan olan ekstrimsevərlərin iştirakı ilə Haçadağa yürüş təşkil olunub.

Ənənəvi ekstremal yürüşdə Xocalı faciəsi qurbanları və 44 günlük Vətən müharibəsi şəhidləri yad edilib, hər iki ölkənin Dövlət Himni ifa olunub Azərbaycan-Türkiyə qardaşlığı və Xocalı soyqırımına aid şüarlar səsləndirilib.

Sonda tədbirin əhəmiyyəti ilə bağlı fikirlər söylənilib, yürüş iştirakçılarına fəxri fərman təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər, Fövqəladə Hallar (FHN), Səhiyyə nazirlikləri və Turizm Departamentinin dəstəyi ilə reallaşan yürüşdə Türkiyə Dağçılıq Federasiyasının xətti ilə müxtəlif klubları təmsil edən 17 alpinist iştirak edib. Təşkilatçı qurum əməkdaşları və media nümayəndələri ilə birgə yüksəkliyə, ümumilikdə, 34 nəfər qalxıb.

Qeyd edək ki, günün erkən vaxtı Naxçıvan şəhərindən adıçəkilən təbiət abidəsinə doğru hərəkət edən yürüş iştirakçıları saat $7^{00}$-da Culfa rayonunun Gal kəndi ərazisindən başlayaraq zirvəyə doğru hərəkət ediblər. Hava şəraitinin yaratdığı çətinliklər və risklər nəzərə alınmaqla yürüş iştirakçıları mümkün yüksəkliyə qədər irəliləyiblər. Türkiyəli qonaqlar səfər proqramına uyğun olaraq muxtar respublikada turizm əhəmiyyətli məkanları da ziyarət ediblər.

## Xocalıda bizim isti nəfəsimiz var

Budəfəki söhbətimizdə oxucularımıza 32 ildən sonra azad olunmuş Xocalıya qayıdan, ata yurdunun işğaldakı dövrü ərzində həyatını və yaradıcılığını Xocalıya həsr edən Səriyyə Cəfərovadan bəhs edəcəyik. Məlumat üçün öncə onu bildirim ki, Səriyyə xanım 1960-cı ildə Xocalı şəhərində dünyaya göz açıb. Xocalı soyqırımının şahidi olan Səriyyə xanımla telefon vasitəsilə həmsöhbət olduq. Soyqırımı zamanı anasını, yaxın qohumlarını itirdiyini deyən müsahibim söylədi ki, o, 1991-ci ildə "Xocalının səsi" qəzetində xüsusi müxbir vəzifəsində çalışıb. Qəzetdə işıq üzü görən məqalələrində, əsasən, ermənilərin Qarabağda törətdikləri vəhşiliklərdən və Xocalı soyqırımına qədər Qarabağda baş verən siyasi proseslərdən bəhs edib.



Səriyyə xanım danışarkən onun səsindən həm qürur, həm də kövrəklik hiss olunurdu:

"İxtisasım jurnalistika olduğundan gənclik illərimdən yazıb- yaratmaqla məşğulam. Qarabağımız işğaldan azad olunana qədər Xocalının qara güngüzəranından yazmışıq. Cümlələrimizdə bir Vətən həsrəti duyulub... Amma Xocalı işğaldan azad edildikdən, öz yurd-yuvamıza geri döndükdən sonra sevinc və qürur hissi ilə yazıram. Öz peşəmi bu gün də, yenidən doğma yurdumda – Xocalımda davam etdirirəm. Həyat və yaradıcılığımın Xocalıdan uzaqda keçən illərində bir neçə kitabım işıq üzü görüb. Kitabların hamısında Vətən həsrəti, yurd nisgili var. Əsərlərimə nəzər yetirsəniz, görəcəksiniz ki, mən mütləq bir gün Xocalıya dönəcəyimi kitabın hər səhifəsinə həkk etmişəm. Xocalının azad olunacağına inanmışam. Və heç bir zaman bunun əksini düşünməmişəm..."

Səriyyə xanım söhbətinə belə davam edir: "İllərdir, Xocalı həsrətində idim. Bu yurd yerinə ilk qayıdan sakinlərdən biri də mən olmuşam. Xocalımızın əzəli sakinləri kimi öz dədə-baba yurdumuza əbədi olaraq qayıtmışıq. Uca Yaradana şükürlər olsun!" Müsahibimiz qeyd edir ki, 28 May – Müstəqillik Günündə Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən Xocalıda xocalılılara mənzillərinin açarları təqdim edilib. Həmin sakinlərdən biri də mənəm: "Həmin tarixi, həmin anı heç zaman unutmaram. Çünki mən Xocalıdan çıxanda evimin açarını belə götürə bilməmişdim. Elə hiss etdim ki, evimin itən açarını cənab Prezident və Mehriban xanım sanki haradansa tapıb mənə verdilər. Çünki mənim bütün uşaqlıq xatirlərim bu evdə olub. Bu evi yenidən bərpa edib mənə geri qaytarmaları mənim üçün ən böyük hədiyyədir. Həmin anı xatırlayanda kövrəlirəm. Göz yaşlarıma hakim ola bilmirəm. Bəli, bu gün artıq azad Xocalıda bizim isti nəfəsimiz var. Mən hər zaman inanırdım ki, bir gün bu torpaqlara geri dönəcəyik. Bu tarixi qələbə ilə ərazi bütövlüyümüz uğrunda həlak olan bütün şəhidlərin ruhu əbədi sakitliyə qovuşub! Və o gün bu gündür, Xocalı qurbanlarının ruhu şaddır. Onların əziz xatirəsini azad Xocalıda anmaq şəhidlərimizin ruhuna ən böyük hədiyyədir. Ən əsası da Xocalı soyqırımını törədən cinayətkarlar bu gün Azərbaycanın haqq və ədalət məhkəməsi qarşısında cavab verirlər. Həmd olsun Allaha ki illər sonra ədalət öz yerini tapdı..."

**Bülbül QULİYEVA**

## Xocalı faciəsi və ya insanlıq haqqında düşüncələr

*(esse)*

Orada bir yurd yeri vardı: doğma diyarımızın ayrılmaz guşəsi olan Qarabağda. Yaz, yay aylarında yaşıllığa bürünürdü. Elə bir yaşıllığa ki uzaqdan baxanda meşəyə bənzədirdin. Möhrədən işlənmiş kipcərək evləri yaşıllıq gözəgörünməz etmişdi. Payızda qızılı rəngdən don geyirdi. Elə ki qış qapının ağzını aldı, donunu dəyişirdi.

Bu yurdun ərənləri qurşaq tutar, at minər, cıdıra çıxardılar. Xanım-xatın gözəlləri oğlanlardan geri qalmazdılar.

Dişgöynədən bulaqları vardı. Minbir zümzümə ilə axırdılar. Meyvə və üzüm bağlarının məhsullarını şirinlikdən yemək olmurdu.

Bu kiçik yurd yerinin özünəməxsus xüsusiyyətləri vardı. Bir evə ki xeyir iş düşdü, ta toy qurtarana qədər hamı bir nəfər kimi o evə yığışardı. Toylarında səhərəcən çal-çağır kəsilməzdi. Qara zurnanın səsi dağları tərpədərdi, qonşu ellərə gedib çıxardı.

Yurd yerinin adamları bir evə düşən yası hamının hüznü sayırdılar, 40 gün, 40 gecə yas saxlanırdı.

Bütün bunların hamısının başında ağsaqqallar və ağbirçəklər dururdu. Onların sözləri bu yurd yerinin yazılmamış qanunları idi. Kimsə bu qanunlardan kənara çıxmaq barədə düşünə belə bilməzdi.

Beləcə, günlər aylara, aylar illərə qovuşur, bir nəsil digərini əvəz edirdi. Dünənki uşaqlar bu gün kəndin gəncliyi, sabah ağsaqqalı idi. Dəyişməyən qayda-qanunları var idi. Bu qanunlar onların süfrələrinin ruzi-bərəkəti idi. Və bu ruzi-bərəkət getdikcə də artırdı.

…Bir gün acı rüzgar o yurdun da qapısını döydü – Xocalının. O gün Xocalının işıqları söndü…Yaman söndü. Erməni vəhşiləri söndürdü...

...Doğma ocağından, doğma həsrətindən, doğma vəfasızlığından için-için göynəyən, ağrıyan yaralarından qan sızan səsini bütün varlığımla eşitdim. Gücüm çatmır səsinə səs verəm, sənə qovuşam. O qorxunc, müdhiş gecəni xatırlayıram: Ondan əvvəlki bəxtiyar, şad günlərin, çal-çağırlı dəmlərin gəlir gözlərim önünə. Nəfəsim darıxır, kükrəyib daşmaq istəyirəm, bir nəfəsə sənə doğru qaçmaq, ağuşuna atılmaq keçir qəlbimdən. Səsim içimdə boğulur, özüm-özümü ittiham edirəm: O vaxt niyə səni qoruya bilmədik, niyə sənə həyan olmadıq?

...Sən görürdünmü o qara buludları? Axı o qara buludlar nə vaxt idi ki, sənə sarı yol gəlirdilər. Gəlirdilər ki, öz qara, məkrli niyyətlərinə çatsınlar. Sənə çatana qədər qara buludları qovmaq olmazdımı səma üzərindən? O qara buludlar səni arxasızmı görmüşdü? Suallar heç nəyi həll etmir...

...O gün hava da boğulmuşdu, elə bil, bozluq yağırdı torpağa. Uzaqlardan keşməkeşli tarixi olan Oğuz yurdunun üstünə gizli-gizli dərd gəlirdi. Oğrun-oğrun qara kabus kimi gəlirdi...

Gəlirdi ki, tarixi bir də geri çevirsin, başımıza gəlmişləri bir də gətirsin. Gəlirdi ki, tariximizə növbəti qara günü – Xocalı faciəsini yazsın.

Gəlirdi... Bütövlük mücəssəməsi Xətai övladlarının sinəsinə od qoymağa, yurdu viran etməyə gəlirdi.

...O gün bir saatın, bir günün içində gəlməmişdi... Qara Yanvardan ulu tarix üçün çox kiçik zaman kəsiyi olan 2 il bir ay keçirdi hələ... Qara Yanvarın yaraları təzə-təzə qaysaq bağlayırdı onda...

Xəyalımda sənə tuşlanan silahlara, göylərə ucalan, ərşə qalxan insan hay-harayları ilə cavab verməyin gəlir gözlərim önünə. O hay-haraylar, insan qəlbini didib-parçalayan ah-nalələr ərşə çatsa da, başçılarımıza çatmadı. Çünki vəzifə stolu, vəzifə hərisliyi onların gözlərini tutmuşdu – xalqın taleyindən yuxarıda dururdu vəzifədə qalmaq istəyi. Bunun üçünsə özlərindən böyüklərin qabağında ikiqat əyilməli idilər. Ulu Cavidin dühasından yaranaraq qələmindən süzülən misralar düşür yadıma:

*İdrakı sönük başçıların qəfləti ancaq,*
*Etmiş, edəcək millət həp əldə oyuncaq.*
*Buludlar gəlməyində idi...*
*Gəlməyini eşidirdik...*
*Gəlməyini bilirdik...*
*Ancaq inanmırdıq üstümüzə oğrun-oğrun gəlməyini.*

...Bu cür kişilik xalqımızın özünün yaşı qədər yol gəlib, torpaqlarımız istila olunub – dözüb. Müharibə apara-apara arxadan vurulub, dözüb. Arxadan vuran özünün çörəyi ilə böyüyən olub!!!

Millətin böyüklüyü elə onda olub ki, çörəyi ilə böyüyüb namərd olanı əfv edə bilib. Millətin başının bəla çəkməsi, bəlkə, elə onun böyüklüyündədir. Böyüklük həmişə böyük olaraq qalır. Böyüklük həqiqətdir. Həqiqət incələr, ancaq qırılmaz. Həqiqətin böyüklüyü onun qırılmazlığındadır... Həqiqət ona görə qırılmazdır ki, o haqdır, böyükdür.

...Rəqəmlərə nəzər salanda ən soyuqqanlı insan belə dəhşətə gəlməyə bilməz: 487 nəfər ömürlük şikəst olub, 1275 nəfər qoca, uşaq, qadın əsir götürülüb. Şəhid olmuş 613 nəfərin 106 nəfəri qadın, 63 nəfəri uşaq imiş, 8 ailə bütövlükdə məhv edilib. 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib...

...Həyat öz axarı ilə davam edir...

Yadıma azadlıq aşiqi Yulius Fuçikin bir sözü düşür:

"İnsanlar, ayıq olun!"

Minilliklər boyu həyat həqiqətlərini əks etdirən bu sözlərdə olan dərin fəlsəfi mənanı açmaq üçün böyük zəka sahibi olmaq lazım deyil – tarixi həqiqətlər o tarixi yaşayan və yaşamayan insanların gözü qabağındadır... İdrak sahibi üçün qaranlıq qalmayan həqiqətlər... Ağrılar...

O ağrılar tarixdə baş verən ən böyük vəhşiliklərdən doğub. Bu, XX əsrin ən böyük cinayətidir, ən böyük faciəsidir ki, biz yaşamışıq. Bu faciə bütün bəşər cəmiyyətinin yaddaşında elə, beləcə də, qalacaq.

...O illərdə, o günlərdə baş verənlər kiçik siyasi hadisələr deyildi. Bu, böyük tarixi keçmişi, zəngin adət-ənənələri hər qarış torpağında qanla yazılmış qəhrəmanlıq izləri olan bir xalqa qarşı soyqırımı aktı idi – Xocalı da aktın qurbanlarından biri. Fevralın 25-dən 26-na keçən gecə burada baş verən dəhşətlər insan qanına susamış, özgənin halal torpaqlarını özününkü etmək xülyası ilə tarixdə ad çıxarmış erməni qəsbkarları üçün adi bir hal idi. Dəfələrlə bu ssenari ilə çıxış etmişdilər, dişləri şirəyə batmışdı. Bu da əsli-kökü bəlli olmayan bir millətin tülkü xislətli xarakterindən irəli gələn xüsusiyyət kimi diqqəti cəlb edir: hücuma gecə ikən keçmək. Elə onların son illərdə xalqımıza qarşı yönəldilmiş "Səlib yürüşləri"ni xatırlayaq, Sədərəyə gecə ikən hücum etdilər. Sumqayıt hadisələri gecə ikən baş verdi, Xocalı da eləcə...

O müdhiş gecə xalqımızın böyüklüyünü, düşmənə qarşı əyilməzliyini bir daha üzə çıxardı. Xocalılılar sübut etdilər ki, yağıya boyun əyməkdənsə şərəfli ölüm yaxşıdır.

Bu fakt isə insanın qanını dondurur damarlarında: rəhbərlik üç gün bu faciəni Azərbaycan xalqından gizlətdi...

Bu günün həqiqəti. Xalqımız Xocalının özümüzə qaytarılacağına inanırdı. Və bu inamında yanılmadığını gördü. 2023-cü ildə aparılan antiterror əməliyyatı ordumuzun bu gözəl guşəsinin, qədim yurd yerinin geri alınması, tarixi həqiqətin bərpa edilməsi ilə nəticələndi.

Bu gün geri alınmış digər torpaqlarımız kimi Xocalıda da genişhəcmli tikinti-quruculuq işləri həyata keçirilir. Xocalı sakinlərinin yaxşı yaşaması üçün dövlətimiz mümkün olan tədbirlər görür. Bütün bunlar isə dünyanın ən ağır faciəsini yaşamış soydaşlarımızın müstəqil dövlətimizin diqqətində olduğunun ifadəsidir.

20 sentyabr tarixinin "Xocalı şəhəri günü" kimi təqvimdə özünə yer alması hər birimiz üçün böyük bayrama çevrilib.

**Muxtar MƏMMƏDOV**



## Xocalı Böyük Qayıdışın simvoluna çevrilir



***Tarix heç vaxt cinayəti və cinayətkarı unutmur və bağışlamır. Əlləri günahsız insanların qanına batan zalımlar gec-tez ədalətin qarşısında diz çökürlər. Zaman hər şeyi yerinə qoyur, haqsızlığa göz yumanları və zülm edənləri unutqanlığın qaranlığına gömmür. Tarixin hökmü qaçılmazdır – ədalət bərqərar olur və cəlladlar öz layiqli cəzalarını alırlar.***

**Gülxarə ƏHMƏDOVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

XX əsrin sonlarında dost bilib əl uzatdığımız, süfrəmizin ən ləziz nemətlərinə qonaq etdiyimiz xain ermənilər xəyanətkar xislətlərini ilk fürsətdə göstərdilər. Erməni silahlı qüvvələri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Rusiyanın Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin dəstəyi ilə Xocalı şəhərini işğal etdilər. Günahsız azərbaycanlıları amansız bir qətliama məruz qoyaraq misli görünməmiş vəhşilik törətdilər. Həmin gecə Xocalının göyləri fəryad sədaları ilə sarsıldı. Qocaların, cavanların, günahsız körpələrin ah-naləsi ərşə qalxdı, insan qanına bələnmiş şəhər qırmızı qərənfilə bənzədi. Təbiət belə bu faciəyə laqeyd qalmadı – buludlar göz yaşına döndü. Düşmənin amansız hücumları xocalılıları öz doğma yurdlarından didərgin saldı. O gecə Xocalı bütün xalqın taleyində sağalmaz yaraya çevrildi.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan hökuməti və parlamenti erməni millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlərin, o cümlədən Xocalı soyqırımının bütün dəhşətlərini və miqyasını dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırmaq üçün ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirdi. Bu cinayətlərin soyqırımı siyasəti kimi tanınmasına nail olmaq əsas hədəflərdən biri idi. Ulu Öndərin təşəbbüsü ilə Milli Məclis 1994-cü il fevralın 24-də "Xocalı soyqırımı (genosidi) günü haqqında" xüsusi qərar qəbul etdi. Bu sənəddə Xocalı faciəsinin başvermə səbəbləri və günahkarları ətraflı şəkildə açıqlandı. Eyni zamanda Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və erməni qəsbkarlarının beynəlxalq miqyasda ifşa edilməsi mühüm vəzifələrdən biri kimi ön plana çəkildi.

Bu addımlar təkcə tarixi ədalətin bərqərar olması üçün deyil, həm də Xocalının günahsız müdafiəçilərinin və şəhidlərinin ruhu qarşısında bizim insanlıq və vətəndaşlıq borcumuz idi. Uzun illər düşmən tapdağı altında qalan Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan tamamilə təmizləndi. Bu təkcə bir şəhərin azad edilməsi deyil, həm də Xocalı qurbanlarının qanının yerdə qalmadığını, Azərbaycan xalqının əzmini və haqlı mübarizəsinin nəticə verdiyini bir daha sübut etdi.

Bu gün Xocalıda Azərbaycan Bayrağı qürurla dalğalanır. Bu bayraq təkcə bir şəhərin azadlığını deyil, həm də 1992-ci ildə Xocalıda törədilmiş soyqırımına verilən tarixi cavabı simvolizə edir. Azərbaycan dövləti və xalqı Xocalı faciəsini heç vaxt unutmayacaq, onun qurbanlarının xatirəsini daim yaşadacaq və bu faciənin dünya səviyyəsində tanınması istiqamətində mübarizəsini davam etdirəcək.

Bu gün Xocalı qurbanlarının xatirəsi həmişəkindən fərqli olaraq qələbə ruhu ilə anılır. Vaxtilə məcburi köçkün və qaçqın adlandırılan soydaşlarımız üçün yeni bir dövr başlayıb – bu, Böyük Qayıdış dövrüdür. İşğaldan azad edilmiş torpaqlarımıza qayıdış, Azərbaycan xalqının sabahına açılan əbədi günəşdir. Bu parlaq günəş, Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin sarsılmaz iradəsinin, düşmənin başı üzərində daim hazır olan "dəmir yumruğ"unun və güclü Azərbaycan Ordusunun sayəsində doğmuşdur.

Xocalı artıq yalnız bir faciənin simvolu deyil, həm də Azərbaycanın gücünün, xalqımızın yenilməzliyinin, dövlətimizin əzmkarlığının göstəricisidir. Bu gün Xocalıda açılan hər səhər yeni bir ümid, yeni bir başlanğıc deməkdir. Bir zamanlar qanla yoğrulmuş torpaqlarda indi həyat yenidən canlanır. Xocalıda yeni körpələr dünyaya göz açır, dağıdılmış evlərin yerində müasir şəhər salınır, illərlə həsrət çəkən xocalılılar öz doğma yurdlarına qayıdırlar.Vaxtilə ata-baba torpağından didərgin düşənlərin ruhu bu gün Xocalıda rahatlıq tapır. Azərbaycanın cəsur və uzaqgörən lideri, Prezident cənab İlham Əliyevin müdrik siyasəti nəticəsində Xocalı yenidən dirçəlir, xoş günlərini yaşayır. Xocalı artıq məğlubiyyətin deyil, qələbənin, Böyük Qayıdışın və gələcəyə ümidin simvoluna çevrilib. Bu gün biz yalnız Xocalını yad etmirik, həm də onun bərpasını, dirçəlişini, tarixə yazılan yeni şanlı səhifələrini qeyd edirik. Azərbaycan xalqı üçün Xocalı faciəsi heç vaxt unudulmayacaq. Bu torpaqda yenidən həyatın bərqərar olması, haqlı mübarizənin zəfərlə nəticələnməsi tariximizin ən böyük ədalət qələbələrindən biridir.

Yurdundan didərgin düşənlərin ruhları indi Xocalının azad və dinc gündəlik həyatında rahatlıq tapır. Bu gün Xocalı xalqımızın, ordumuzun və birliyimizin möhkəm təməli, igid əsgərlərimizin fədakarlığı və rəşadəti sayəsində azad və işıqlı bir gələcəyə doğru yol alır. Həmin günlərin acı xatirələri, igid döyüşçülərimizin canı bahasına qazandıqları zəfərin və millətimizin gücünün təcəssümü olaraq tarixdə qalacaq. Xocalı artıq bir yara deyil, xalqımızın qalibiyyətə olan inamının və həmrəyliyinin simvoluna çevrilib. Bugünkü firavan həyatımız, o igidlərin mübarizəsinin və şücaətinin nəticəsidir. Bu qələbə, yalnız bizə deyil, bütün dünyaya göstərdi ki, heç bir güc xalqın azadlıq və müstəqillik arzusunu sarsıda bilməz. Artıq, keçmişin ağrılarını unutmaq, sabahın parlaq ümidlərinə doğru addım atmaq mümkündür. Xocalı bu gün yalnız bir məğlubiyyətin yox, qalibiyyətin və əbədi dirçəlişin simvoludur.

## Milli azadlıq mübarizəsi



***Azərbaycanın tarixində unudulması mümkün olmayan, bütövlükdə, xalqın qəlbində dərin iz salan elə hadisələr də vardır ki, heç zaman xalqın qan yaddaşından silinmir. Ermənilərin törətdikləri Xocalı soyqırımı da belə dəhşətli hadisələrdəndir.***

**Şəhla ƏHMƏDOVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları Xocalıda Azərbaycan xalqına qarşı tarixin ən qanlı soyqırımlarından birini törədib. Vətən müharibəsində tarixi Zəfərdən sonra Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Dövlət Bayrağını ucaldıb. Bu şəhərdə Azərbaycan Bayrağının dalğalanması Xocalı faciəsi qurbanlarının qanının yerdə qalmadığını bir daha nümayiş etdirir.

Xocalı faciəsi dünyada törədilən bir çox soyqırımı hadisələrindən dəhşətli olsa da, bu hadisəyə uzun müddət hüquqi-siyasi qiymət verilməmişdir. Yalnız Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilmişdir. Ulu Öndərin təşəbbüsü ilə Milli Məclis "Xocalı soyqırımı Günü haqqında" xüsusi qərar qəbul etmiş, sənəddə hadisənin başvermə səbəbləri təfsilatı ilə açıqlanmışdır.

Son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin beynəlxalq miqyasda ifşası sahəsində xeyli iş görülüb, xarici dillərdə kitablar nəşr olunub, filmlər çəkilib, Xocalı mövzusu müxtəlif beynəlxalq tədbirlərdə gündəmə gətirilib, bununla bağlı internet saytları yaradılıb. Heydər Əliyev Fondu tərəfindən 2008-ci ildə "Xocalıya ədalət!" Beynəlxalq İnformasiya və Təşviqat Kampaniyasının təsis edilməsi atılan mühüm addımlardandır.

Prezident İlham Əliyevin: ***"Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsidir. Bu soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir"*** sözləri Zəfər salnaməmizin yazılmasında hər kəsin birliyini bir daha nümayiş etdirirdi.

2020-ci il sentyabrın 27-dən başlayan, 44 gün davam edən və ermənilər tərəfindən işğal edilmiş ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi isə tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz liderinin – Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Tarixi zəfərə imza atıldı, Azərbaycan Qarabağa qovuşdu, Xocalıda bu gün Azərbaycan Bayrağı dalğalanır, şəhidlərimizin, Xocalı qurbanlarının qisası döyüş meydanında alındı. Bu qələbəni, zəfəri bizə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidentimiz, Ali Baş Komandanımız cənab İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, güclü ordumuz, rəşadətli əsgər və zabitlərimiz oldu.

Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin inamlı qələbəsi ilə başa çatmışdır. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu böyük şücaət və yüksək döyüş hazırlığı göstərərək 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan torpaqlarımızı geri qaytardı. Bu haqq döyüşündə tarix yazan Azərbaycan Ordusu tərəfindən məhv edilən düşmən qüvvələri içərisində Xocalı soyqırımının cəlladları da vardı. Tarixi qələbə qazanan ordumuz bu qətliamın günahsız qurbanlarının qisasını aldı. Xocalıda, eləcə də Qarabağ uğrunda həlak olan bütün şəhidlərimizin ruhu əbədi rahatlığa qovuşdu.

## Xocalı soyqırımı: *tarixin qanlı səhifəsi və ədalət axtarışı*

*Azərbaycan Respublikası Xocalı soyqırımının dünya miqyasında tanıdılması və ədalətin bərpa edilməsi istiqamətində ardıcıl və ciddi tədbirlər həyata keçirir. Bu məqsədlə ölkə rəhbərliyi və vətəndaş cəmiyyəti beynəlxalq arenada Xocalı soyqırımının tanıdılması üçün böyük səy göstərir.*



**Sevil HACIYEVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

2024-cü ilin fevral ayında Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin təməlini qoymuşdur. Bu kompleksin inşası, Xocalı soyqırımının dünya ictimaiyyətinə daha geniş şəkildə tanıdılması və bu faciənin yaddaşının əbədi olaraq qorunması məqsədini daşıyır. Kompleksin inşası həm də Azərbaycan xalqının ədalət axtarışının, soyqırımının tanınması uğrunda apardığı mübarizənin davamıdır. Azərbaycanda və xaricdə Xocalı soyqırımının tanınması üçün keçirilən kampaniyalar, informasiya təbliğatları və diplomatik təşəbbüslər bu mübarizənin bir hissəsidir.

Prezident İlham Əliyev təməlqoyma mərasimində çıxış edərək qeyd etdi: ***"Xocalı soyqırımı, yalnız Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı törədilmiş ən böyük cinayətlərdən biridir. Bu gün biz burada, Xocalı soyqırımının dəhşətlərini unutmamaq, gələcək nəsillərə bu faciəni unutdurmamaq üçün toplanmışıq. Xocalı heç vaxt unudulmayacaq!"***

Azərbaycan dövlətinin apardığı siyasət və beynəlxalq səviyyədə atdığı addımlar nəticəsində Xocalı soyqırımı getdikcə daha çox tanınır. Ədalətin bərqərar olması və bu cür faciələrin bir daha təkrarlanmaması üçün beynəlxalq ictimaiyyət bu vəhşiliyi törədənləri layiqli cəzaya məhkum etməlidir.

2023-cü ildə keçirilən antiterror əməliyyatları nəticəsində Azərbaycan Respublikasının tam nəzarətinə keçən Xocalı rayonu, tarixin ən ağrılı səhifələrindən birini arxada qoyaraq yeni bir dövrə qədəm qoydu. Xocalının azad edilməsi Azərbaycan üçün yalnız ərazi bütövlüyünün bərpası deyil, həm də, əsl mənada, milli qürur və həmrəyliyin təzahürüdür. Dövlət tərəfindən həyata keçirilən Böyük Qayıdış Proqramı çərçivəsində, işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yenidən qurulması, şəhər və kəndlərin bərpası istiqamətində əhəmiyyətli addımlar atılıb. Bu proqram Xocalıya və digər işğaldan azad edilmiş ərazilərə qaçqın və məcburi köçkünlərin qayıtmasını, öz torpaqlarında sülh və əmin-amanlıq içində yaşamasını təmin etmək məqsədini güdür.

Xocalının işğaldan azad olunmasından sonra məcburi köçkünlükdən əziyyət çəkən minlərlə insan öz yurdlarına qayıdaraq yeni həyat qurmağa başlayıb. Bu əhali yalnız evlərinə, kəndlərinə qayıtmayıb, həm də köhnə dövrün ağrılı xatirələrini geridə qoyaraq gələcəyə ümidlə baxmağa başlayıb. Təhsil, səhiyyə, sosial və iqtisadi sahələrdə həyata keçirilən bərpa işləri, Xocalının yenidən canlanmasına və insanların öz torpaqlarında dinc və firavan həyat sürməsinə şərait yaradıb.

Xocalının inkişafı ilə bağlı ən simvolik hadisələrdən biri də Xocalı rayonunun Ballıca kəndində doğulan ilk körpədir. Məmmədovlar ailəsinin ilk övladı olan oğlan uşağı yalnız bu kəndin deyil, bütün Azərbaycanın inkişafı, tərəqqisi üçün yeni ümidlərin doğulmasını, bütün Xocalının, ümumilikdə, Azərbaycanın yeni həyatına, gələcəyə doğru atdığı ilk addımları simvollaşdırır. Gələcəkdə bu körpə kimi digər uşaq və gənclər müasir, inkişaf etmiş və xoşbəxt bir Xocalıda yaşayacaqlar.

# Heydər Əliyev adına Hərbi Lisey: şərəf, qürur, zəfər



27 il bundan öncə Naxçıvanda ilk hərbi təhsil ocağının yaradılması haqqında Ulu Öndər Heydər Əliyevin imzaladığı Sərəncam uzaqgörən bir addım idi. 1998-ci ildən fəaliyyətə başlayan məktəb tez bir zamanda gəncləri ətrafına topladı. Görkəmli dövlət xadimi Heydər Əliyev həmin ili Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında kursantlarla görüşür, xeyir-duasını verərək deyir: ***“Özünü bu peşəyə həsr edən bir Azərbaycan gənci bütün gənclərdən yüksəkdə durur, bütün gənclərdən qiymətlidir. Çünki müstəqil dövlətimiz, müstəqil Azərbaycan yaşamalıdır, inkişaf etməlidir. Onun bün gün də, gələcəkdə də çox güclü ordusu olmalıdır. Olmalıdır ki, dünyada məşhur olan və dünya tarixində böyük yer tutmuş sərkərdələr kimi, müstəqil Azərbaycanın özünün də hərbi sərkərdələri olsun. Tam inanıram ki, Azərbaycan gəncləri içərisində yaxın gələcəkdə belə sərkərdələr çıxacaqdır”.***

## Gələcəyin sərkərdələri burada yetişir











Ulu Öndər hələ 70-ci illərdə Bakıda C.Naxçıvanski adına Hərbi Təmayüllü Məktəbi yaradanda da Azərbaycanın müstəqil gələcəyini hədəfləmişdi. Bu gün görürük ki, dahi öndərin müəyyənləşdirdiyi uzaqgörən siyasət artıq öz bəhrələrini verməkdədir. Bunun ifadəsidir ki, müstəqilliyimizin qorunmasında, habelə milli ordu quruculuğunda həmin məktəbin məzunları müstəsna xidmətlər göstəriblər.

Azərbaycan Ordusunun peşəkar hərbi kadrlara olan tələbatını ödəmək məqsədilə Ulu Öndərin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə yaradılan Naxçıvan filialı çox keçmir ki, özünü doğruldur. Ölkə başçısı cənab İlham Əliyevin 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə fəaliyyətinin yeni mərhələsinə qədəm qoyan Naxçıvan Hərbi Liseyi yaradıcısı və qurucusu Ulu Öndər Heydər Əliyevin adını daşıyır. Bu gün liseyin 4 minə yaxın məzunu silahlı qüvvələrin bütün birləşmə və bölmələrində öz xidməti vəzifələrini layiqincə yerinə yetirirlər.

### *Liseyin bu günü*

Liseydə müasir təhsil standartlarına uyğun hər bir şərait yaradılıb: fənn kabinələri, laboratoriyalar, trenajorlarla təchiz olunmuş idman zalı, tir otağı, zəngin kitab fonduna malik kitabxana, STEAM kabinəsi. İkiillik təhsil müddətində bütün bu imkanlardan yararlanan kursantlara təcrübəli müəllimlər dərs keçir. 2005-ci ilin dekabrında muxtar respublikaya səfəri zamanı ölkə başçısı İlham Əliyev hərbi liseydə olaraq burada yaradılan şəraiti yüksək qiymətləndirib.

Liseydə yalnız muxtar respublikadan deyil, ölkəmizin digər bölgələrindən olan gənclər də təhsil alır. Kursantlar muxtar respublikada keçirilən tədbirlərdə, idman yarışlarında, rəsm və şeir müsabiqələrində fəal iştirak edirlər. Bunu yataqxananın foyesində sərgilənən müxtəlif mükafatlar, fəxri fərman və medallardan da görmək mümkündür.

Ötən il bir nəfər kursant fizika fənni üzrə keçirilən fənn olimpiadasında qızıl medala layiq görülüb. Ümumilikdə, kursantlar liseyə 5 qızıl, 4 gümüş, 25 bürünc medal qazandırıblar.

### *Sərkərdə qoçaq olsa və ya Qarabağı azad edənlər*

Liseyin ilk buraxılışında 49 kursant məzun olub. Fəaliyyət genişləndikcə və liseyə maraq artdıqca məzun sayı da artıb. Nəticə etibarilə, Azərbaycanın bütün bölgələrində məktəbin məzunları təmsil olunub və xidməti fəaliyyətini layiqincə yerinə yetirib. Təhsil və xidmət illəri gəncləri peşəkar zabit kimi formalaşdırıb. Düşmənin cəbhəboyu törətdiyi təxribatların qarşısının alınmasında, eləcə də Aprel döyüşlərində cəsarət göstərən məzunlar sırasında şəhidlik məqamına yüksələnlər də var. Örnək göstərilən məzunlar yetişən kursantlar üçün vətənpərvərlik məktəbi olub. Bu məktəbi bitirənlər isə Qarabağı azad etdilər...

Hərbi liseyi seçən gənclər üçün ən ümdə amal Qarabağın düşmən tapdağından azad edilməsi idi. Bu məqsədlə ömürlərini hərb peşəsinə bağlayanlar üçün qarşıda bir hədəf olub: torpaqlarımızın geri qaytarılması, ölkəmizin suverenliyinin təmin edilməsi. Bu ali məqsəd uğrunda təhsil alan, düşmən qarşısında səngər kimi dayanan oğullar üçün çətinlik, yarılmayan səd anlayışı olmayıb. Xocalının qisasını almaq, yarımçıq qalan arzuları gerçəkləşdirmək, öz yurdundan-yuvasından didərgin düşən insanları torpaqla qovuşdurmaq üçün onlar güclərinə güc qatıblar. Və nəhayət, o gün yetişib. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsində şücaət göstərən oğullar sırasında Naxçıvan Hərbi Liseyinin məzunları – qəhrəmanları da olub. Vüsal Vəliyev, Zülfü Rzayev, Allahyar Telmanlı, Məmməd Zamanlı, Yaqub Nəcəfov, Raqib Hüseynov, Amin Gülməmmədov və onlarla zabit şəhidlik məqamına yüksəldi. Sağlamlığını itirənlər də oldu. 2023-cü ilin sentyabrında antiterror əməliyyatı ilə bütöv Vətənimizə qovuşduq, suverenliyimiz bərpa edildi. 30 illik torpaq, yurd həsrətimizə son qoyuldu. Bu zəfərin qazanılmasında hərbi liseyin məzunlarının xidməti danılmazdır və onların adları tarixə qızıl hərflərlə yazıldı. Ulu Öndərin etimad göstərdiyi, yüksək qiymətləndirdiyi gənclər ən ali mərtəbəyə – şəhidlik zirvəsinə ucaldılar, qəhrəman oldular, gələcək nəsillərə örnək oldular. Liseyin məzunlarından 4 nəfər – mayor Şahin Hüseynquliyev, kapitan Qəzənfər Bağırlı, kapitan Veysəl Müsibov (ölümündən sonra), baş leytenant Cavid Behbudov Vətən müharibəsi qəhrəmanı adına layiq görülüb, polkovnik-leytenant Rəsul Süleymanov, kapitan Şamil Babayev (ölümündən sonra) “Zəfər” ordeni, 11 nəfər məzun isə “Qarabağ” ordeni ilə təltif olunub. Bu liseyin ən ali uğur göstəriciləridir. Və liseyin kursantları 2020-ci ildə Bakıda keçirilən Zəfər paradında iştirak etdilər.



### *“Hər zaman döyüşə səfərbərik biz”*

Naxçıvan şəhərinin mərkəzi küçələrindən birində yerləşən Heydər Əliyev adına Hərbi Liseyin yanından ötənlər kursantların gur səslə oxuduğu və addım səsləri ilə tamamladığı mahnını çətin ki, eşitmiş olmayalar:

*Başımız üstündə üçrəngli bayraq,*
*Hər zaman döyüşə səfərbərik biz.*

Döyüş meydanında sözünü deyənlər, öz ardıcıllarına örnək olanlar, biz sizə güvəndik. Ulu Öndərin əminliklə bəslədiyi etimadı doğrultdunuz, Qarabağın azadlığına qovuşmasında pay sahibi oldunuz. Əhsən sizə! Bu gün sizin yolunuzu davam etdirənlərə – hərbi liseyin kursantlarına da eyni etimadı bəsləyirik.

Qalib ordumuzun sıralarında sizi görmək əzmi ilə, irəli!

**Ruhiyyə RƏSULOVA**

# Azərbaycanın ədalət məhkəməsi



*XX əsrin ən böyük cinayətləri arasında Azərbaycan xalqına, onun dövlət suverenliyinə və mövcudluğuna qarşı erməni faşizmi və onu bəsləyən qüvvələr tərəfindən törədilmiş işğal, soyqırımı və vandallıq əməlləri özünün insanlıq xarici qəddarlığı ilə seçilməklə bu gün Bakıda davam edən ədalət məhkəməsi qarşısında dayanan separatçı canilərdən bir-bir soruşulmaqdadır. Heç bir günahı olmayan, sadəcə, azərbaycanlı olduğuna görə əsrlərlə yaşadığı yurdundan qovulan, təhqir, işgəncə və ölümlə qarşı-qarşıya qoyulan insanların bu gün ədalətdən gözlədiyi, bir daha bu torpaqlarda sürgün, ölüm və göz yaşlarının olmaması üçün günahkarların layiq olduqları cəzalarına çatmalarıdır. Çünki bu cəzaya layiq görülənlər dünyaya ibrət dərsi olmalıdır ki, bütün zalımlar hər nə qədər güclü olsalar da, mütləq günahları qarşısında cavab verəcəklər.*

Azərbaycan xalqının taleyinə isə həm də zalım qonşularla birgə yaşamaq, zaman-zaman işğala, terrora, hücumlara məruz qalmaq, uzun illər ərzində pozulmuş insan hüquqlarına, yağmalanmış əmlaka, yox olmuş arzulara, həyatları sönmüş həmvətənlərinə görə, sadəcə, səbir edib dözmək qisməti yazılıb sanki. Ona görə də təkcə 1988-ci ildən etibarən deyil, eləcə də Araz ayrılıq çayı olandan bəri son 250 il ərzində işğalçı və xain qonşularımızın torpaqlarımıza göz dikməsi ilə xalqımızın üzləşdiyi faciələr, ölkəmizin itirdiyi torpaqlar, oğurlanan, yağmalanan, uzaq ölkələrə daşınan maddi mədəniyyət nümunələrimiz, işğal altında qalmış ərazilərdə vandallıq və quldurluq qurbanı olmuş tarixi abidələrimiz və ən nəhayət, Vətənimizin bütövlüyü uğrunda canından keçmiş qəhrəman şəhidlərimizə görə Azərbaycan xalqının məhkəmədə soruşacağı hesablar vardır. Əsrin məhkəməsi kimi tarixə düşəcək və ermənilərin xalqımıza qarşı törətdikləri bütün cinayətləri mühakimə edəcək bu ədalət davasında üzə çıxan həqiqətləri görən dünya gözü dönmüş erməni faşizminin iç üzünün ifşasına bir daha şahid olacaq.

II Qarabağ müharibəsi və birgünlük antiterror əməliyyatlarından sonra bərqərar olmuş ədalətin təntənəsinə şahid olduğumuz bu günlərdə, Xankəndidə yaxalanmış, Azərbaycan xalqına və dövlətinə qarşı törətdikləri cinayətlərə görə mühakimə olunanların miskin sifətlərini gördükdə, əslində, onların insan deyil, bir zamanlar insan qanına susamış hansısa lənətlənmiş zombilər olduğunu unutmamalıyıq. Sülh və insanlıq əleyhinə cinayətlərin bilavasitə iştirakçısı olmuş, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Arayiklər, Rubenlər, Arkadilər daha nə kimi çoxsaylı "yanların" məhkəməsində onlar bir-bir üzlərinə oxunan əməllərə görə, cavab verəcəklər. Açıqlanan ilkin ittiham aktına görə, Azərbaycanın suveren əraziləri olan 12 şəhər, 18 qəsəbə, 895 kənd, ümumilikdə, 925 yaşayış məntəqəsinin işğalı və uzun illər ərzində işğal altında saxlanılması nəticəsində, ümumilikdə, ölkəmizin 18 min 850 nəfər vətəndaşı qəsdən öldürülmüş, 56 min 268 nəfər şəxsə onların qəsdən öldürülməsi məqsədilə müxtəlif dərəcəli bədən xəsarəti yetirilmişdir.

Ermənistanın təcavüzkarlığı nəticəsində I Qarabağ müharibəsi, ondan sonrakı dövrdə və II Qarabağ müharibəsi dövründə mülki infrastruktura, ümumilikdə, 5,2 milyard manatdan çox ziyan dəyib. Şübhəsiz, ölkəmizin mülki infrastrukturuna, iqtisadiyyatına, ekoloji vəziyyətə və müdafiə arsenalına, ümumilikdə, vurulmuş 100 milyard manatı aşan ziyanın riyazi rəqəmlərlə ölçülən həcmini məhkəməyə çıxarılaraq özlərini keçmiş sovet ittifaqının xüsusi xidmət orqanlarının qurbanı hesab edən və eləcə də hələ də azadlıqda gəzən ermənilər hamıdan yaxşı bilsələr də, lakin bu ötən 37 il ərzində erməni təcavüzünün xalqımıza vurduğu mənəvi zərbələri çətin ki, kimsə sona qədər qiymətləndirə bilsin. 1988-ci ildən başlayaraq sovet mərkəzi aparatındakı ağulaq əsilli rəhbərlərin dəstəyinə arxalanaraq mütəşəkkil terrorçu dəstələr şəklində azərbaycanlılara qarşı açıq silahlı basqınlar edib öldürdükləri insanların sonradan dərilərini soyan, əsir götürülmüş soydaşlarımızın erməniəsilli şəxslərin qəbirləri üzərində başlarını qurbanlıq kimi kəsən ermənilərin cəzası, şübhəsiz, daha böyük olacaq.

Bu cəza ədalətli olduqca əzilmiş, tapdalanmış insan hüquqları, məhv olmuş arzular, yox olmuş ailələrin yaxınları təskinlik tapacaqlar. Bu məhkəmədən gözlənilən ədalət Şuşada yallı gedən sərxoş Paşinyanın əzib tapdaladığı xarıbülbülün zərif rayihəsinə dərman, kafir ayağı dəymiş Xudafərin körpüsünün fəryadına məlhəm də olacaq. Bu məhkəmə Füzulinin, Ağdamın, Cəbrayılın, Zəngilanın dağıdılmış yurd yerlərinə, künc daşlarına qədər sökülmüş binalarında bir zaman yaşamış insanların ruhlarına rəhmət gətirib, burada quldurluq etmiş ermənilərin törətdikləri cinayətləri bir-bir üzünə sadalayacaq. Bu gün beynəlxalq qanunlar əsasında qurulmuş məhkəmədə vəkil, erməni dilində tərcüməçi tələbi ilə çıxış edib hüquqlarından dəm vuran erməni vandallarının əlimizdə olan bu başçıları 1992-ci ilin soyuq 26 fevral gecəsində ağlaya-ağlaya gecə boyu Xocalıdan qaçıb Ağdama çatmaq istəyən yüzlərlə körpə uşağın buz kimi donmuş gözyaşlarının haqqını ödəyə biləcəklərmi!? Yaxud hələ ki azadlıqda qalan Köçəryan, Sarkisyan, Balasanyan, Ohanyan kimilər Qərbi Azərbaycandan və Qarabağdan didərgin etdikləri minlərlə qaçqın və köçkünün dəmir yolu vaqonlarında, konteynerlərdəki acı həyatına görə necə cavab verəcəklər? İndi ədalət məhkəməsindən gizlənsələr də, harada olsalar da, mütləq bu cavabı verəcəklər! Lap gorbagor olub o dünyaya getsələr də!

Bu gün çoxsaylı cinayətlərlə ittiham olunub Bakıda timsah gözyaşları tökən 15 nəfər erməni məhkumdan 30 ildən artıq müddətdə blokada məngənəsində sıxılan yüz minlərlə Naxçıvan sakininin də soruşacağı bir hesab vardır. On illər boyu Azərbaycanın sərvətləri hesabına cah-calal içində yaşamış, özlərinə sərvət toplamış ermənilər Bakıdan Naxçıvana gedən yolları kəsməklə uzun illər boyunca burada yaşayan insanları ərzaq və enerji məhrumiyyətləri ilə üz-üzə qoymuş, minlərlə ailənin gözəl arzularını puç etmiş, yüz minlərlə ağacın kəsilməsinə, on minlərlə evin işıqsız qalmasına bais olmuşlar. Sədərəyə iriçaplı silahlardan atəş açıb dinc sakinləri qətl edən ermənilər bu illərdə on minlərlə naxçıvanlının doğma Bakıya çıxışını bloklamaqla insanların vaxtında işinə-gücünə, təhsilinə, müalicəsinə, əzizlərinin dəfninə çatmasına əngəl oldular. Bu gün şüşə arxasından boylanan yazıq tülkü görkəmindəki ermənilərin başlatdığı separatizm və işğal olmasaydı, 1988-ci ilə qədər bütün Cənubi Qafqazın turizm cənnəti olmuş Qarabağın və eləcə də Azərbaycan müstəqil olduqdan sonra Naxçıvanın region və dünya turizminə nələr qazandırdığından danışa bilərdik. Lakin Qarabağın bütün turizm infrastrukturunu və tarixi-mədəni zənginliklərini məhv edən, Naxçıvana gedən kommunikasiyaları da bloklayan ermənilərin təkcə Azərbaycanın turizm gəlirlərinə vurduqları ziyana görə, yəqin ki, Ermənistanın ən azı 50 il təzminat ödəməsi tələb olunacaq.

Bu gün Bakıda davam edən əsrin məhkəməsinə dünya şahidlik edir. Şübhəsiz, insanların on illərlə pozulmuş yaşamaq hüquqlarına, itirilmiş əmlaka, mülkiyyətə, qarət olunmuş sərvətlərə görə burada məhkum olunan erməni canilər layiqli cəzalarını alacaqlar. Ancaq kimsə unutmasın ki, erməni faşizminə dəstək verib, onları silahlandıran, təkcə Azərbaycanda deyil, bütün dünyada insanların başına bəla olanlar da bir gün mütləq Allahın cəzasına tuş gələcəklər.

✍ **Əli CABBAROV**

# Bu qış həmin qış deyil...



Yenə qar yağıb Xocalıya. Yenə buz tutub yollar, şaxta yenə insanın iliyinə işləyir. 1992-ci ilin bu günündəki kimi. Həmin o qarlı gündəki kimi yenə çox soyuqdur. Yenə bir qadın yenicə doğulan körpəsini qucağına sıxıb sakitləşdirməyə çalışır. Yenə uşaqlar qarlı küçələrdədir. Həmin gündəki kimi evlərin damından tüstü çıxır. Yox, bu qış o qışdan deyil, bu dəfə tamam fərqli bir xatirələr yaşanır Xocalıda. Həmin gün 33 il öncəki gecədən fərqlidir bu dəfə. Ana azad Xocalıda doğulan körpəsinin ağlamasından, səsinin ətrafa yayılmasından narahat deyil. Çünki düşmən yoxdur daha, artıq azaddır Xocalı. Çünki o körpənin səsi azadlığın, yenidən qayıdan həyatın səsidir. Xocalılı ana daha qorxmur heç nədən, o artıq körpəsini öz əlləri ilə boğmaq məcburiyyətində də deyil. O artıq öz evindədir. Qoy bütün dünya eşitsin bu körpənin Xocalıya yayılan səsini. Qoy dünya bilsin, biz bir ölüb, min dirilən millətik. Eşitsin bütün cahan, bilsin ki, bir körpənin qədəmində doğulub, yaşayır igidlərimiz.

Artıq xocalılı uşaqlar soyuq fevral gecəsində yağan qarın bəyazlığına sevinir. Qar daha qan ləkələri ilə boyanmayıb. Ayaqyalın deyil körpələr, onların ayaqları buz tutmur artıq. Uşaqların fəryad səsi duyulmur daha, gülüş səsləri ucalır artıq. "Xocalıdan beşyaşlı qız" yazılan adsız məzardakı körpə qızın ruhu da sevinir artıq.

Soyuq fevral gecəsidir yenə, ancaq heç kim üşümür. Uşaqlar soyuqdan buz kəsmir artıq. Onlar düşmən gülləsinə tuş gəlmir daha. Məktəbə təlsir, şərəfli tarixləri ilə qürur duyurlar.

Evlərin damından qalxan tüstü yanan ocaqların hənirtisini göstərir. Düşmənin külə döndərdiyi evlərin yerinə yeni-yeni ocaqlar qurulub. Artıq o evlərdə öz çırağımız, ocağımız yanır.

Qız-gəlin illər sonra ilk dəfə Su çərşənbəsini öz evində qarşılayır. Yazın ətri gəlir artıq Xocalı torpağından. Bu qış o qışdan deyil, bu qar da o qardan. Bu fevral o fevral da deyil artıq. Artıq Günəş şəfəq salır Xocalıya. 33 il öncə yurdundan ayaqyalın çıxan xocalılılar igid Azərbaycan əsgərinin ayaq izləri ilə geri qayıdıb artıq. Əbədi olaraq, heç nəyi unutmayaraq.

✍ **Ramiyə ƏKBƏROVA**








# Bir əsrlik təhsil ocağı

Naxçıvanın qoynunda, səssizliyin və tarixin birləşdiyi məkanda bir təhsil ocağı var. Burada bilik işığı ilə yol alan gənclər zamanın sınaqlarına sinə gərərək gələcəyin texnologiyasını qurmağa hazırlaşırlar. Bu məkanın divarları təkcə daşlarla deyil, arzular və zəhmətlə hörülüb: Naxçıvan Dövlət Texniki Kolleci. Kökləri 100 illik təhsil yoluna dayanan bu kollecin keçdiyi inkişaf yolu, yetişdirdiyi mütəxəssislər və cəmiyyətə verdiyi töhfələr onun zəngin irsini formalaşdırıb. Bir əsr boyunca yüzlərlə gəncin bilik mənbəyi olmuş bu təhsil müəssisəsi zamanın sınaqlarından uğurla çıxaraq ənənələrini qoruyub saxlayıb və yeniliklərə uyğun inkişaf edib.

Naxçıvan Dövlət Texniki Kolleci Azərbaycan təhsil sisteminin qədim və zəngin tarixi olan orta ixtisas təhsili müəssisələrindən biridir. 25 fevral 1925-ci ildə Naxçıvan Muxtar Respublikasının IV Sovetlər Qurultayının "Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun yaradılması haqqında" Qərarı ilə əsası qoyulan bu kollec, həmin il kənd təsərrüfatının mexanikləşdirilməsi və aqronomluq ixtisasları üzrə 41 tələbə ilə fəaliyyətə başlayıb.

1925-1971-ci illərdə Naxçıvan Kənd Təsərrüfatı Texnikumu adı ilə fəaliyyət göstərən bu təhsil ocağı, 1971-ci ildə Babək rayonunun Şıxmahmud kəndinə köçürülmüş və toxumçuluq sovxozu ilə birləşdirilərək Mehdi Hüseynzadə adına "Naxçıvan Sovxoz Texnikumu" adlandırılmışdır. 1991-ci ildə ictimai təsərrüfatların ləğv olunması ilə əlaqədar texnikum Naxçıvan şəhərinə köçürülərək yenidən Naxçıvan Kənd Təsərrüfatı Texnikumu adını almışdır.

Kollecin həyatına qədəm basan hər kəs burada bir fərqlilik hiss edir. Elə bil ki, illərin pıçıltıları, gənclərin ümid dolu addımları ilə birləşib, görünməz bir harmoniyanı yaradır. Dərs otaqlarında sükut hökm sürsə də, bu sakitlik dərin düşüncələrə, yenilik axtarışlarına, gecə-gündüz davam edən çalışmalara şahidlik edir. Burada hər masa üzərində bir xəyal, hər lövhədə bir gələcək cizgilənir.

1997-1999-cu illərdə Naxçıvan Aqrar Sənaye Kolleci adı altında, daha sonra yenidən Naxçıvan Kənd Təsərrüfatı Texnikumu olaraq fəaliyyət göstərən, 26 avqust 2002-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə Naxçıvan Dövlət Texniki Kolleci adlandırılan və 25 oktyabr 2002-ci ildən bu adla fəaliyyət göstərən kollec sənətə, texnologiyaya, zəhmətə sədaqətlə yaşayan ruhun bir parçasıdır. Bu kollecin gəncləri yalnız texniki biliklər öyrənmir, həm də həyatın sərt yollarına dözməyi, uğura gedən yolda səbir etməyi öyrənirlər. Çünki buradan məzun olanlar yalnız bir diplomla deyil, içlərində qığılcımlanan bir iradə ilə həyatı qarşılayırlar.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2000-ci ildə imzalanan təhsil sisteminin təkmilləşdirilməsi haqqında Fərmana əsasən kollec Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyindən Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. 2012-ci ildə isə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə keçmiş, 2023-cü ildə Naxçıvan Dövlət Universitetinin nəzdinə daxil edilmişdir. Kollecin müasir binası 10 oktyabr 2016-cı ildə istifadəyə verilmişdir. 5 mərtəbəli, 784 yerlik bina müasir avadanlıqlarla, o cümlədən 15 elektron lövhəli sinif otağı, kimya-biologiya, fizika, STEAM laboratoriyaları və innovasiya mərkəzləri ilə təchiz edilmişdir.




Bu kollecin ürəyi kimi döyünən bir guşə var – kitabxana. Burada zaman dayanır, səhifələrdə yazılanlar isə sükut içində danışır. Gün işığının pəncərələrdən süzüldüyü bu məkanda hər kitab bir pıçıldayan dostdur, hər sətir isə insan ruhunun gizli künclərinə işıq salır. Rəflər boyu sıralanmış kitablar illərin sirlərini, elmin dərinliklərini öz səhifələrində daşıyır. Həmin kitabxana 10 min 232 kitabı kollec tələbələrinin ixtiyarına vermişdir ki, bu kitablardan 5 min 517-si bədii ədəbiyyat, 4 min 715-i isə müxtəlif növ dərsliklərdir. Bir tələbə burada öz gələcəyinin açarını tapır, bir başqası isə keçmişin hikmətlərini oxuyur. Tozlu səhifələrdə əsrlərin nəfəsi hiss olunur, yenicə açılmış kitabların qoxusu isə gələcəyə olan ümidləri xatırladır.

Bu kitabxanada hər kəs öz hekayəsini yazır. Kimisi texnologiyanın sirlərini öyrənməyə gəlir, kimisi isə sözün sehrində özünü tapmağa çalışır. Bəzən bir tələbə kitab səhifələri arasında elə itir ki, saatların necə keçdiyini belə anlamır. Digəri isə masa arxasında əyləşərək qələmini kağıza toxundurur və gələcəyin böyük ideyalarını formalaşdırır. Burada sükut danışır. Səslər alçaqdır, amma fikirlər ucadan səslənir. Hər səhifə çevirildikcə yeni dünyalar açılır, yeni yollar görünür. Kitabxana yalnız bir bina deyil, o, düşüncələrin sığınacağı, ruhun qidalandığı bir məbəd, elm və bilik yolunda sönməyən bir çıraqdır.

Bu kollecdə həyat müxtəlif çalarlarla boyanır. Hər ixtisas bir rəngdir, hər tələbə isə bu rənglərdən öz yolunu çəkən bir rəssam. Mühasibat uçotu ilə maliyyənin riyazi incəliklərini öyrənənlər də var, bank işi ilə iqtisadiyyatı idarə etməyi bacaranlar da. Onlar rəqəmlərin susqun dilini anlayır, cəmiyyətin dövranını təmin edən görünməz sütunları möhkəmləndirirlər.

Telekommunikasiya sahəsini seçənlər isə sözləri, səsləri, məlumatları uzaq məsafələrə daşımağın sirrini öyrənir. Onlar sanki rabitənin sehrbazlarıdır – insanları bir-birinə yaxınlaşdıran görünməz tellərin ustaları.

Baytarlıq ixtisası öz qəlbində mərhəməti daşıyanlar üçündür. Onlar canlıların sağlamlığını qorumağı, təbiətlə harmoniyada yaşamağı öyrənirlər. Hər bir xəstə heyvan onların əlində şəfa tapır, kənd təsərrüfatı isə onların bilikləri sayəsində inkişaf edir. Aqrar təsərrüfatın təşkili ixtisası isə torpağın ruhunu anlayanlar üçündür. Onlar bilirlər ki, bir toxumun cücərməsi, bir tarlanın bərəkətə çevrilməsi böyük zəhmət və bilik tələb edir. Əkinçiliyin sirlərini öyrənən bu tələbələr sabahın ərzaq təhlükəsizliyini təmin edən qəhrəmanlardır.

Turizm işinin təşkili ixtisasını seçənlər isə ölkənin gözəlliklərini dünyaya tanıtmağı öyrənirlər. Onlar hər bir məkanı bir tarix səhifəsi kimi oxuyur, mədəniyyətin və qonaqpərvərliyin elçisinə çevrilirlər. Səyyahların yolyoldaşı, ölkənin simasını təqdim edənlər də məhz onlardır.

Bu kollecdə on üç fərqli ixtisas var. Hər biri bir dünyadır, hər biri bir ümiddir. Kimisi şəhərləri işıqlandıran mühəndis olacaq, kimisi elmi inkişaf etdirəcək. Kimisi gələcək biznes layihələrinin təməlini qoyacaq, kimisi isə insanları bir-birinə bağlayan informasiya şəbəkələrinin memarı olacaq.

Burada oxuyan gənclər, sadəcə, bir sənət öyrənmir, həm də həyatın müxtəlif sahələrində iz buraxmağa hazırlaşırlar. Çünki bilik bir xəzinədir və bu kollecdə hər kəs öz xəzinəsinin açarını axtarır.

Burada təhsil prosesi 71 müəllim tərəfindən təmin olunur ki, bunların sırasında fəlsəfə doktorları, magistrlər və təcrübəli pedaqoqlar dayanır. Kollecin əyani şöbəsində 36 qrupda 573 tələbə vardır. Onlardan 403 nəfəri dövlət hesabına, 170 nəfəri isə ödənişli əsaslarla təhsil alır.

Kollec 100 illik fəaliyyəti ərzində 50 minə yaxın məzun yetişdirmişdir. Görkəmli alimlərdən olan akademiklər Həsən Əliyev və Həsən Abdullayev, professorlar Yunis Səfərov və Hacı Hacıyev, Sovet İttifaqı qəhrəmanları Qəzənfər Əkbərov və Nəcəfqulu Rəfiyev, həmçinin Sosialist Əməyi qəhrəmanları Məmməd Əsgərov və Narı Quliyeva kimi insanlar bu kollecin yetirmələrindən olmuşdur…

Bir əsrlik tarixə malik bu kollec təkcə təhsil ocağı deyil, həm də elmin, bilik və maarifin yayılmasında mühüm rol oynayan bir mərkəzdir. 100 il ərzində bu kollecdə minlərlə peşəkar kadr yetişdirilib, cəmiyyətə xidmət edən mütəxəssislər hazırlanıb. Keçmişin zəngin təcrübəsi və bugünkü müasir yanaşmalar sayəsində Naxçıvan Dövlət Texniki Kolleci gələcəyə inamla addımlayır. Ənənələrini qoruyub saxlayaraq yeniliklərə açıq olan bu kollecin qarşıdakı illərdə də təhsil sahəsində mühüm uğurlara imza atacağı şübhəsizdir. 100 illik irs yeni nəsillərə örnək və ilham mənbəyi olmağa davam edəcək…

✍ **Rafiq TƏHMƏZ**
**Arzu ƏSGƏROV**
***Naxçıvan Dövlət Texniki Kollecinin müəllimi***

# Naxçıvan Təlim Mərkəzi insan kapitalının gücləndirilməsi və dövlət idarəçiliyinin modernləşdirilməsi istiqamətində işlər görür



"Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxs "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində insan kapitalının gücləndirilməsi, dövlət idarəçiliyində kadr potensialının artırılması və gənclərin peşəkar inkişafına töhfə vermək məqsədilə yaradılıb. Mərkəzin mühüm strateji hədəfləri var. Bunlar müasir dövlət idarəetməsi, strateji planlaşdırma və liderlik sahəsində təlimlərin genişləndirilməsi, elektron hökumət və rəqəmsal idarəetmə sahəsində dövlət qulluqçuları üçün ixtisasartırma və süni intellekt və data analitikası sahəsində xüsusi proqramların hazırlanmasıdır.

Naxçıvan Təlim Mərkəzinin İdarə Heyətinin sədri Tağı Tağızadə bildirdi: "Fəaliyyətimiz muxtar respublikanın dövlət orqanlarında çalışan işçilərin bilik və bacarıqlarının artırılması və müasir idarəetmə metodlarının tətbiq edilməsi, gənclərin əmək bazarına daha hazırlıqlı inteqrasiyasını təmin etmək və onların şəxsi inkişafına dəstək vermək məqsədi daşıyır. Belə ki, insan kapitalının inkişafı prioriteti çərçivəsində təhsil və kadr potensialının daha da gücləndirilməsi, peşə təhsili və ixtisasartırma imkanlarının genişləndirilməsi, dövlət orqanlarının əməkdaşları üçün təlim və təcrübə proqramlarının təkmilləşdirilməsi kimi ehtiyaclar və bu strateji hədəflərin həyata keçirilməsi zamanı qurumlar arası koordinasiyanı təşkil edəcək və ümumi prosesə nəzarət edəcək".

Tağı müəllim deyir ki, mərkəzin yaradılması həm dövlət qulluqçularının peşəkarlığını artırmaq, həm də gənclərin əmək bazarına daha hazırlıqlı çıxmasını təmin etmək, onların müasir idarəetmə metodlarını mənimsəməsi və daha effektiv fəaliyyət göstərməsi üçün mühüm bir addımdır. Bu da muxtar respublikanın uzunmüddətli inkişaf hədəflərinə tam uyğundur.

Bu günə qədər keçirilən təlimlər haqqında danışan müsahibimiz qeyd etdi ki, hazırda bu istiqamət üzrə müəyyən edilmiş zəruri təlimlər mərhələli şəkildə həyata keçirilir: "Bunlar "Maliyyə və mühasibat uçotu", "Dövlət satınalmaları və tətbiqetmə", "İnsan resursları və kadr potensialının təkmilləşdirilməsi", "Əmək və məşğulluq altsistemindən (ƏMAS) düzgün istifadə qaydaları" kimi başlıqlar altında yaradılmış təlim proqramlarıdır. Bu proqramlar üzrə qısa müddət ərzində bir çox qurumun, daha dəqiq desək, 15 qurumun yüzdən çox əməkdaşının iştirakı ilə təlimlər uğurla həyata keçirilib. Hazırda təlim iştirakçılarından gələn rəylərə əsasən uzunmüddətli təlim proqramları üzərində mərkəzin əməkdaşları ilə təlimçilər birlikdə çalışırlar. Bununla yanaşı, keçən ilin dekabr ayında təşkil etdiyimiz "Naxçıvan liderlik platforması" tədbirimizin ikincisinin yaxın zamanda həyata keçirilməsi planlaşdırılır və bu formatda maraqlı bir neçə layihə üzərində paralel işlər davam etdirilir".

Mərkəzin gələcək prioritetlərindən danışan Tağı müəllim bildirdi ki, Naxçıvan Təlim Mərkəzi fəaliyyətini Dövlət Proqramı çərçivəsində insan kapitalının gücləndirilməsi və dövlət idarəçiliyinin modernləşdirilməsi istiqamətində inkişaf etdirməyi planlaşdırır.

Qeyd edək ki, xarici ölkələrin nüfuzlu təlim institutları ilə ortaq sertifikat və diplom proqramlarının yaradılması ilə yanaşı, sənaye və biznes sektorları üçün ixtisaslaşmış təlim proqramlarının inkişaf etdirilməsi də prioritetlərdəndir.

Bu sırada fevralın 22-də "FireWorks HRM" şirkətinin təşkilatçılığı ilə keçirilən tədbiri qeyd etmək olar. Süni intellektin korporativ mədəniyyətə və mental rifaha təsirini əhatə edən bu tədbir öz sahələrində tanınmış peşəkarların iştirakı ilə yadda qaldı. Hüquq üzrə elmlər doktoru Mayis Əliyev, professor Hamlet İsaxanlı və Litva Respublikasının Azərbaycandakı səfiri Kestutis Vaskelevicius kimi dəyərli şəxsiyyətlərlə fikir mübadiləsi aparmaq imkanı tədbirin əsas məqamlarından biri oldu.

Bu tədbir onların süni intellektin müasir iş mühitinə və insan psixologiyasına təsirlərinə dair yanaşmalarını dinləmək və müzakirə etmək üçün fürsət yaratdı. Tədbir süni intellektin yalnız texnoloji yenilik kimi deyil, həm də korporativ dəyərlər və emosional rifaha bağlı transformasiya aləti kimi potensialını bir daha vurğuladı. Şübhəsiz ki, belə təşəbbüslər muxtar respublikada insan kapitalının inkişafına mühüm töhfə verəcək.

Aldığımız məlumatlardan da göründüyü kimi, Naxçıvan Təlim Mərkəzinin uzunmüddətli strateji inkişafı muxtar respublikanın insan kapitalının gücləndirilməsinə xidmət edəcək.

✍ **Bülbül QULİYEVA**

# “Gimnastika hamı üçün” Naxçıvanda



***Azərbaycan Gimnastika Federasiyasının (AGF) məşqçiləri tərəfindən muxtar respublika gimnastları və onların valideynləri üçün “Gimnastika hamı üçün” idman növündə ustad dərsi keçilib.***


Ruslan Eyvazov


Rəna Manafova

Tədbirdə 80-ə yaxın gimnast, eləcə də məşqçi və valideynlər iştirak ediblər.

AGF-nin “Gimnastika hamı üçün” idman növü üzrə baş məşqçisi Ruslan Eyvazov, məşqçilər Abid Aslanov, Rəna Manafova, Ləman Zeynalzadə və digərlərindən ibarət 8 nəfərlik heyəti ustad dərsinin iştirakçıları ilə öz təcrübələrini bölüşüb. Dərs isinmə hərəkətləri ilə başlayıb, ardınca rəqslər, fləşmob və akrobatik hərəkətlər icra olunub.

Qeyd edək ki, bu növdə ustad dərsi Naxçıvanda artıq ikinci dəfədir (birincisi, 2023-cü ildə), təşkil olunur. Məqsəd adıçəkilən idman növünə marağı artırmaq, idmançıların hazırlıq səviyyəsini yüksəltmək və gələcək yarışlar öncəsi motivasiya etmək olub.

Azərbaycan Gimnastika Federasiyasının məşqçiləri tərəfindən Naxçıvanda təşkil olunan “Gimnastika hamı üçün” idman növü üzrə ustad dərslərin keçilməsi təsdiq edir ki, ölkəmizdə idman siyasəti günün tələbləri səviyyəsində qurulmaqdadır. Biz də “Şərq qapısı” komandası olaraq muxtar respublikanın qonağı olan “Gimnastika hamı üçün” idman növü üzrə baş məşqçi Ruslan Eyvazovla həmsöhbət olduq.

O bildirdi ki, artıq 2-ci dəfədir ki, ustad dərslər üçün muxtar respublikaya gəlirlər: “Bizi hər zaman burada güləruz və səmimiyyətlə qarşılayırlar. Naxçıvanlıların qonaqpərvərliyi danılmazdır. Komanda olaraq 9 nəfər heyətlə gəlmişik. Bunlar arasından 6 nəfəri gimnastika üzrə dərslər keçəcək. Mən çox şadam ki, “Gimnastika hamı üçün” idman növü naxçıvanlı gimnastlar tərəfindən sevilir və inkişaf edib. Bu gün keçilən dərslərdə uşaqlara isinmə hərəkətləri, fləş-mob, hipopreksi, akrobatik hərəkətlər öyrədilir. Həmçinin dərslərimizdə balaca uşaqların valideynləri də bizlərlə birgə onlara dəstək olmaq üçün iştirak edirlər. Təşkil olunan bütün festival və yarışlarda bu balacalar Naxçıvanı layiqincə təmsil edir. İnanıram ki, keçilən dərslərdə də onlara nəsə öyrədə bilmişik. Düşünürəm ki, bunun özü də onlara motivasiyadır. Hər birinə uğurlar arzu edirəm”.

Ustad dərslərdə iştirak edən qonaqlardan biri 63 yaşlı Rəna Manafovadır. Müsahibimiz qeyd etdi ki, gimnastika nə qədər çətin olsa da, Naxçıvanda potensiallı uşaqlar çoxdur: “Əslində, idmanın bütün növləri maraqlıdır. İdmanla təkcə peşəkarlar deyil, hər bir insan sağlamlığı üçün məşğul olmalıdır. Mən özüm də Bakıda Ahıllar Evinin yaşlı sakinlərinə müxtəlif idman hərəkətləri ilə dərslər keçirəm. Bu gün Naxçıvanda olmaqdan çox məmnunuq. Buradakı uşaqların hər birinin gələcəyi parlaqdır. Onların bədii gimnastikaya olan marağı gələcəkdə öz yerlərini uğurla təmsil edəcəyinə əminlik yaradır. Bu yaşdakı uşaqların gimnastikaya olan həvəsi hər birinin fiziki və mənəvi tərbiyəsində xüsusi rola malikdir. Biz də hər birinə uğurlar arzu edib, onları gələcəkdə beynəlxalq arenalarda görmək istəyirik”.

**Bülbül QULİYEVA**







**Naxçıvan florası**

***Qədim Naxçıvanın təbiətini fərqləndirən əsas xüsusiyyətlərdən biri onun rəngarəngliyidir. Muxtar respublikanın ərazisi zəngin bitki örtüyünə malikdir.***

***Bu yurd yeri həm də müalicəvi dərman bitkiləri ilə də zəngindir. Bütün bunları nəzərə alaraq “Şərq qapısı” qəzetində “Naxçıvan florası” adlı rubrikanı sizə təqdim edirik.***

## Yovşan



Yovşan bozumtul tüklü yarımkolcuqdur. Gövdəsi (15) 30-50 santimetr hündürlükdə, vegetasiyanın ilk mərhələsində ağımtıl tüklü, sonralar isə qalın tüklü və qol-budaqlara malikdir. Əsasından bir qədər yuxarıda budaqlanan bitkidir. Aşağı gövdə yarpaqları 2,5-3,5 santimetr uzunluqda olub uzunsov, iki dəfə lələk şəklində dilimli, dilimləri nazik sapvari və ya xətvaridir. Səbətləri oturaq, yumurtavari və ya şar formadadır. Çiçəkləri sarıdır. Sentyabr-oktyabrda çiçəkləyir, oktyabr-noyabrda isə toxumları yetişir. Tərkibində çoxlu efir yağları olduğundan kəskin qoxuya və acı dada malikdir.

Tərkibindəki efir yağları orqanizmi stimullaşdırır, iştahanı artırır, həzmi asanlaşdırmağa kömək edir. Mədə üçün çox faydalıdır. Bağırsaqlardakı parazit qurdları azaltmağa kömək edərək bağırsaq spazmlarını aradan qaldırır. Bədəndə qida maddələrinin sorulmasını asanlaşdırır. Antioksidantlarla zəngindir. Stres və gərginlik vəziyyətlərində sakitləşdirici təsir göstərir. İmmun sistemini gücləndirir və orqanizmin xəstəliklərə qarşı müqavimətini artırır. Yüksək qızdırma salıcıdır. Qan dövranını tənzimləyir. Dəri səthində ağrıları azaldır.

Onu da qeyd etmək lazımdır ki, hər bir dərman bitkisinin yaxşı təsiri olduğu kimi, əks-təsir də göstərə bilir. Yovşan müxtəlif allergik reaksiyalara səbəb ola bilər: dərinin qızartısı, qaşınma, səpgi, nəfəs darlığı kimi əlamətlər göstərir. Həddindən artıq istifadə edildikdə əzələ spazmları və sinir sisteminə təsir edə biləcək digər problemlərə səbəb ola bilər. Yovşandan çox istifadə ürəkbulanma, qusma, başağrısı, başgicəllənmə, qarın ağrısı və ishal kimi problemlərə də səbəb ola bilər.

Buna görə dərman bitkilərindən istifadə etdikdə diqqətli olmalı, hər bir bitkinin təsir və əks-təsirlərini öyrəndikdən sonra istifadə edilməlidir.

**Turan MƏMMƏDLİ**
***biologiya üzrə fəlsəfə doktoru***

### *İtmişdir*

Şərur rayonu, Maxta kənd sakini İbrahimov Ələddin İbrahim oğlunun adına olan JN-67 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, “N” hərbi hissədə qulluq edən əsgər Babayev Vüqar Pərviz oğlunun adına olan SX-0827528 seriya nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Məmmədsabir kənd sakini Qasımov İlqar Məhərrəm oğlunun adına olan JN-167$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Qazançı kəndində yaşamış Xəlilova Diləfruz Əliqulu qızının adına olan JN-173$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Qoşadizə kəndində yaşamış Quliyev Əli Vəliqulu oğlunun adına olan JN-214$^{A}$ nömrəli, 10307018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kəndində yaşamış Mahmudova Qızxanım İsmayıl qızının adına verilmiş JN-558$^{A}$ və JN-558$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 64

Nömrəyə məsul: Gülcamal Tahirova, Nail Əsgərov, Cavanşir Bağırlı
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.